بسم الله الرحمن الرحيم

რელიგიური ცოდნა

# DİNİ BİLİKLƏR

*(Sual – cavablı )*

(კითხვა-პასუხი)

Tərtib edən:

Hacı Arif Heydəroğlu

მოამზადა:
ჰაჯი არიფ ჰეიდაროღლი

TBİLİSİ – 2017

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით


Kitabın adı: Sual-Cavablı DİNİ BİLİKLƏR

Müəllif: Hacı Arif Heydəroğlu

Nəşrə hazırlayan: Hacı BƏKİROĞLU

Kompüter dizaynı: Elsevər ƏHMƏDOV

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.



Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

بسم الله الرحمن الرحيم

# TƏQDİMAT

***Rəhman və Rəhim olan Allahın adı ilə!***

Çox sevimli gənclər, əziz balalar! Əlinizdə tutduğunuz bu kiçik kitabçanın ən gözəl və ən xeyirli əbədiyyət yolunu addımlamaq üçün sizə doğru yol göstərəcəyinə ümid bəsləyirəm.

Quranı öyrənməyə təzə başlayanlar üçün ilkin tanışlıq məqsədi ilə qələmə alınan bu kitabça nəzərdə tutulduğundan da əhatəli hazırlanmışdır. Müxtəlif mövzulardan ibarət olan bu kitabça məzmun etibarilə dərslik səviyyəsindədir.

Kitabçanın sual-cavab üslubunda tərtib edilməsi onun daha maraqlı alınmasına səbəb olmuşdur. Burda sualların dərin, aydın və dəqiq, cavabların yığcam, tez anlaşılan və dəqiqliklə verilməsi çox ciddi rol oynamışdır.

Ən mükəmməl “Elmihal” kitablarından bəhrələnərək ibtidai kursa müvafiq bir həcmdə rəvan düzümlü dərs vəsaiti halına gəlmiş bu kitabça eyni zamanda İslamı neçə illərdir öyrənməkdə olanlar üçün də çox faydalı ola bilər. Belə ki, həyat tərzini İslami dəyərlər üzərində quran hər bir şəxs bu balaca kitabçadan, onu düşündürən sualların cavabını müəyyən səviyyədə tapa bilər.

Təbii ki, kitabça nöqsansız deyil. Bir böyük həqiqət də mövcuddur: mövzuları öyrəndikcə addım-addım ümumbəşəri din olan İslamın misilsiz, əsrarəngiz ülviliyinə, qüdrətinə, nəhayət, səmaviliyinə heyran olur, özünün müsəlman, yəni dünyada ən təmiz, ən xeyirxah, əməli saleh, alicənab, xülasə, bəşəriyyətin ən nümunəvi xilqəti olduğunu görür, dərk edir və fərəhlənirsən.

Bu əsərin Quran kurslarının müdavimləri üçün zəruriliyini, hətta gələcəkdə orta məktəblərdə tədris olunması nəzərdə tutulan “İslam dininin əsasları və əxlaqı” mövzusunda dərslik kimi istifadə oluna biləcəyini düşünürəm. Həmçinin tələb olunan biliklərə uyğun gəldiyini nəzərə alaraq kitabça halında nəşr edilməsini məqsədəuyğun sayıram.

Bu kitabın təsiri ilə həyatınızda baş verəcək dönüşlərlə siz, əziz oxucular! hər iki dünyada Uca Rəbbimizin rizasını qazanan qullardan etməsi ümidilə...

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi

Hacı Yasin Əliyev

# I FƏSİL

# ÜMUMİ SUALLAR

**Rəbbimiz kimdir?**

Rəbbimiz Allahdır. Bizi Allah-Təala yaratdı və axırda ona dönəcəyik. Allah-Təala nəyin yaxşı, nəyin pis olduğunu bildirmək və dinin əsaslarını insanlara öyrətmək üçün peyğəmbərlər seçmiş və müqəddəs kitablar göndərmişdir.

❁ ❁ ❁

**Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) kimdir və müqəddəs kitabımızın adı nədir?**

Peyğəmbərimiz Məhəmməd Mustafadır (səllallahu əleyhi və səlləm). Müqəddəs kitabımızın adı Qurani-Kərimdir.

❁ ❁ ❁

**Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) nə vaxt və harada doğuldu?**

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) miladi 571-ci ilin, Aprelin 20-də Məkkə şəhərində doğuldu. Bu tarix, hicri/qəməri aylardan Rəbiüləvvəl ayının 12-ci gününə təsadüf edir. Bu gecəyə "Mövlüd" gecəsi deyilir.

❁ ❁ ❁

**Peyğəmbərimizin ailəsi haqqında məlumat verin?**

Atasının adı: **- Abdullah**

Anasının adı **- Əminə**

Babasının adı **- Əbdülmüttəlib**

Nənəsinin adı **- Şəfa**

Qızları **- Zeynəb, Ruqiyyə, Ümmügülsüm, Fatimə,**

Oğulları **- Qasım, Abdullah, İbrahim.**

**Allah-Təalanın Peyğəmbərimizə göndərdiyi din hansı dindir?**

Peyğəmbərimizə verilən dinin adı İslam dinidir. Bu dinə inanan və bu dini qəbul edən hər bir şəxsə mömin və müsəlman deyilir.

❁ ❁ ❁

**Siz müsəlmansınızmı? Nə zamandan bəri müsəlmansınız?**

Mən, Əlhəmdülillah, Qalu-Bəladan bəri müsəlmanam. Qalu-Bəla o deməkdir ki, Allah-Təala dünyanı və varlıqları yaratmamışdan əvvəl dünyaya gələcək bütün insanların ruhlarını yaratmış və onlara- **“Mən sizin Rəbbiniz deyiləmmi?”** - deyə soruşmuşdur. Ruhlar da: **- “Bəli, sən bizim Rəbbimizsən, ancaq və ancaq Sənə qulluq edir və Səndən kömək istəyirik”** -deyə cavab vermişlər. Bu sual və cavab zamanına Qalu-Bəla deyilir.

❁ ❁ ❁

**Bir gündə neçə vaxt namaz qılınır və adları nədir?**

Bir gündə 5 vaxt namaz qılınır, adları:

- Sübh, günorta, ikindi, axşam, yatsı.

❁ ❁ ❁

# OXU MATERİALI

## *ALLAHIN VARLIĞI*

Azadın Allahın varlığını qəbul etməsinin qəribə bir hekayəsi vardır.

Bir gün Azad məktəbdəki sinif yoldaşlarıyla Allahın varlığı barəsində mübahisə etdikdən sonra əsəbi və yorğun halda evə qayıtdı. Ortada heç bir şey yox ikən:

- Bu aləm özü-özünə yaranıb, təbiət və fiziki qanunlarla da davam edir. Əgər, Allah var olsaydı biz də görərdik, deyə deyinirdi. Atası Azadın bu halına təəccüb etdi və ona:

- Nə deyirsən, ay oğul? Əgər fikirləşsən Allahın varlığını ağlınla da tapa bilərsən. Ətrafımızdakı hər şey Allahın varlığını göstərməyə kifayət deyilmi?- dedi:

Atası Allahın varlığını Azada maraqlı bir yolla izah etmək istəyirdi. Azad yatanda onun "Azərbaycan dili" dəftərini açıb bəzi səhifələrini qaraladı. Səhər Azad dəftəri açanda vərəqlərin qaralandığını görüb görüb əsəbiləşdi:

- Mənim dəftərimi kim yazıb? – deyə anasının üstünə qışqırdı.

Anası:

- Bilmirəm, ay oğul!- dedi. Atası:

- Bəlkə də sənin qələmin özü  qalxıb dəftəri yazib! -dedi. Atasının cavabından razı qalmayan Azad :

- Ata, elə də şey olar?- dedi.

Sonrakı gün Azad yenə səhər yuxudan qalxanda ayaqqabısının bir tayını tapmadı. Hər tərəfi axtardıqdan sonra ayaqqabını mətbəxin bir küncündə tapdı və :

- Mənim ayaqqabımı bura kim qoyub? -deyə əsəblə bağırdı. Atası isə sakitcə:

- Özü getmişdir, oğul! – dedi. Azad:

- Ata, ayaqqabının ayağımı var? O, necə gedə bilər? Mənimlə zarafat edirsən?

Bir neçə gün Azad qələmini çox axtardı və lap axırda ayaqqabısının içindən tapdı. Dözə bilməyib ağladı və:

- Mənə bunları kim edir? – dəyə hirslə səsləndi. Atası, bu dəfə Azada yaxınlaşıb, onu sakitləşdirdi və belə dedi:

- Bax oğlum! Bunların öz-özünə hərəkət edə biləcəyinə inanmırsan və bu işləri edəni axtarırsan. Həqiqətən də belədir. Bu çox asan işlərin belə öz-özlüyündən ola bilməyəcəyi açıq-aydındır. Madam ki, heç bir iş özü-özündən əmələ gəlmir, onda bu boyda dünya necə fırlanır, ay dünyamızın ətrafında necə dönür, milyonlarca ildir qüsursuz işləyən bu kainatdakı hadisələrin də bir idarə edəni və ya yaradanı olmalıdır ya yox? Elə bu qüsursuz nizamı quran və onu idarə edən də Allahdır! –cavabını verdi. Azad bu izahatdan çox təsirlənib:

- Atacan, indiyə qədər həqiqətən də bu barədə heç fikirləşməmişdim. Məktəbdə sinif yoldaşlarımızla mübahisə edəndə bu sözü onlardan eşitmişdim. Fikirləşəndə özüm nəticəni tapa bilmədim. Mənə bunu öyrətdiyin üçün çox sağ ol!

## DUA



√ **Rəbbim! Asanlaşdır, çətinləşdirmə!**

√ **Ya Rəbbi! (Bu işimin) sonunu xeyir eylə!**

√ **Allahım! Mən Səndən sağlıq, salamatlıq və gözəl əxlaq diləyirəm.**

# II FƏSİL

# ETİQAD

**Dinimiz hansı əsaslar üzərində qurulmuşdur?**

1. Dinimiz iki əsas üzərində qurulmuşdur:

Allahın bir olduğu və ondan başqa ibadət ediləcək heç bir varlığın olmadığına inanmaq.

2. Uca Peyğəmbərimizin Allah tərəfindən bütün insanlara göndərilmiş sonuncu peyğəmbər olduğuna inanmaq.

❁ ❁ ❁

**Dinimizin bu iki əsası necə ifadə olunur?**

Kəlmeyi-Tövhid cümləsi ilə ifadə olunur:

لاَ اَلَهَ اِلاَّ الله مُحَمَّدٌ رَسُولُ الله

(Lə iləhə illəllah, Muhammədun rasulullah).

Mənası: "Allahdan başqa ilahi yoxdur və Məhəmməd (səllallahu əleyhi və səlləm) Allahın elçisidir."

❁ ❁ ❁

**Bəs kəlmeyi-şəhadət nədir?**

Kəlmeyi-şəhadət bu cümlə ilə ifadə olunur:

اَشْهَدُ اَنْ لاَ اَلَهَ اَلاَّ الله وَ اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ

(Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhammədən abduhu və rasuluh)

Mənası: "Mən inanıram və şəhadət edirəm ki, bir olan Allahdan başqa ilah yoxdur və Məhəmməd (səllallahu əleyhi və səlləm) Allahın qulu və Peyğəmbəridir."

Qeyd: Hər kim yuxarıda göstərilən kəlmeyi-tövhidi, ya da kəlmeyi-şəhadəti dili ilə söyləyib ürəkdən təsdiq edərsə, mömin və müsəlman olar.

**Hər bir müsəlmanın bilməsi vacib olan İMANIN ŞƏRTLƏRİ neçədir və necə ifadə olunur?**

İmanın şərtləri 6-dır və "Amantü" duası ilə ifadə olunur:

-Amantü billahi (mən bir olan Allaha inandım)

-Və məlaikətihi (mələklərinə inandım)

-Və kutubihi (kitablarına inandım)

-Və rusulihi (peyğəmbərlərinə inandım

-Vəl yəvmil-axiri (qiyamət gününə inandım)

-Və bil qadəri, xayrihi və şərrihi minallahi-təala (xeyir və şərin Allah tərəfindən olduğuna inandım.)

-Vəl basu badəl məvti haqqun (öldükdən sonra diriləcəyimin gerçəkliyinə inandım).

-Əşhədü ən lə iləhə illəllah və əşhədü ənnə Muhamməden abduhu və rasuluh (Mən inanıram və şəhadət edirəm ki, bir olan Allahdan başqa ilah yoxdur və Məhəmməd (səllallahu əleyhi və səlləm) Allahın qulu və Peyğəmbəridir.)

❁ ❁ ❁

**Hər bir müsəlmanın yerinə yetirməsi fərz olan İSLAMIN ŞƏRTLƏRİ hansılardır?**

İslamın şərti 5-dir:

1. Kəlmeyi-şəhadəti inanaraq söyləmək

2. Namaz qılmaq (ağıllı olan və yetkinlik yaşına çatan hər müsəlman qılmalıdır. )

3. Zəkat vermək (Varlı adamlar malının qırxda bir hissəsini yox sullara verməlidir.)

4. Oruc tutmaq (Yetkinlik yaşına çatan və sağlam olan hər müsəlman Ramazan ayında oruc tutmalıdır.)

5. Həccə getmək (imkanlı və sağlam olan hər müsəlman ömründə bir dəfə Kəbəni ziyarət etməlidir.)

❁ ❁ ❁

**Allahın varlığı və birliyi haqqında danışa bilərsənmi?**

Bəli, ağıllı insanların ilk vəzifəsi, Allahın varlığına və birliyinə inanmaqdır. Ətrafımıza baxdığımız zaman, heç bir şeyin öz-özünə meydana gəlmədiyini görürük. Hər bir sənət əsəri, bunu hazırlayan bir sənətkarın olduğunu göstərir. Elə isə çox mükəmməl bir şəkildə var olan kainatın və insanın da bir sənətkarı və yaradıcısı vardır. Bu yaradıcı sonsuz güc və qüvvət sahibi olan Allahdır. Buna görə də ilk vəzifəmiz bizi yaradan və yaşadan Allaha inanmaq və ona könüldən bağlanmaqdır.

❁ ❁ ❁

**Allahın sifətləri nələrdir?**

Allahda ucalıq və kamillik ifadə edən bütün sifətlər vardır. Allahın sifətləri iki qrupa bölünür:

a- Zati sifətlər 6-dır:

**Vücud:** Allahın var olması deməkdir.

**Qidəm:** Allahın varlığının başlanğıcı yoxdur.

**Bəqa:** Allahın varlığının sonu yoxdur.

**Vəhdaniyyət:** Allah-Təalanın bir olmasıdır.

**Müxalifətun lil həvadis:** Allah sonradan yaranmışlara bənzəməz.

**Qiyam bi nəfsihi:** Allahın varlığı özündəndir. Allah heç bir şeyə möhtac deyil, hər şey ona möhtacdır.

b- Allahın sübuti sifətləri 8-dir:

**Həyat:** Allah diridir.

**Elm:** Allah hər şeyi bilir.

**Səmi:** Allah eşidir.

**Bəsər:** Allah hər şeyi görür.

**İradə:** Hər şey Allahın istəməsi ilə olur.

**Qüdrət:** Kainatda hər şey Allahın gücü və qüdrəti ilə olur.

**Kəlam:** Allah danışır.

**Təkvin:** Allah yaradan, yoxdan var edəndir.

❁ ❁ ❁

## OXU MATERİALI

### *İLAHİ !*

Adını zikr edər gecə və gündüz,
Ağaclar, çiçəklər, güllər, ilahi!
Könlümü, ruhumu aparır Sənə,
Keçdiyim dolanbac yollar, İlahi!

Bir canı borcluyuq, al canımızı,
Alma əlimizdən imanımızı!
Arındır,  barındır zamanımızı,
Açılmış qarşında əllər, İlahi!

Endirib zirvədən dağı yol etmə,
Acgöz nəfsimizə bizi qul etmə!
Namərdi millətə Sən oğul etmə,
Yoxsa, yazıq olar illər, İlahi!

Ən böyük arzumuz – yol göstər bizə,
Fövqünə ucalaq, bu yetər bizə.
Səni dərk etməyə ağıl ver bizə,
Duasız qalmasın dillər, İlahi!

Sən doldur işıqla ürəyimizi,
Biz Səndən umarıq diləyimizi.
Bir daha qul edə bilməsin bizi,
Quzeydən baş alan yellər, İlahi!

Qaldır pərdələri Sən gözümüzdən,
Millət seçə bilsin əməli sözdən.
Çox ayrı düşmüşük öz-özümüzdən,
Bizi özümüzə döndər, İlahi!

***Bəxtiyar Vahabzadə***

**Mələklərin mənşəyi və mahiyyəti haqqında nə dəyə bilərsən?**

Mələklər, nurdan yaradılmış varlıqlardır. Onlar yeməzlər, içməzlər. Kişi və qadın cinsləri yoxdur. Allahın sevimli qullarıdır. Mələklər Allaha hər zaman itaət edən varlıqlardır. Allahın əmrlərini qüsursuz yerinə yetirərlər və günah işləməzlər.

❁ ❁ ❁

**Başlıca mələklər hansılardır?**

Mələklərin bəziləri fasiləsiz olaraq Allaha ibadət edir, bəziləri kainatın tərtibi və nizamı ilə məşğuldurlar. Onlar insanların gücü çatmayan işləri edərlər.

Böyük mələklər bunlardır:

**1- Cəbrail (ə.s):** Mələklərin ən böyüyüdür. Allahla peyğəmbərlər arasında elçilik etmək, Allahın kəlamını peyğəmbərlərə çatdırır.

**2- Mikail (ə.s):** Təbiət hadisələrini idarə edir.

**3- İsrafil (ə.s):** Qiyamət hadisəsini yerinə yetirməkdir.

**4- Əzrail (ə.s):** Ömrü sona çatan insanların canını alır.

**Kiramən-katibin:** Bunlar iki mələkdir. Biri insanın sağında, digəri isə solundadır. Sağdakı, mələklər yaxşı işləri, soldakı isə, pis işləri yazır.

**Nəkir və Münkər:** Bunlar, öldükdən sonra qəbirdə insanları sorğu-suala tutan iki mələkdir.

**Rizvan:** Cənnətdəki mələklərin başçısıdır.

**Malik:** Cəhənnəmdəki mələklərin başçısıdır.

❁ ❁ ❁

**Kitablara iman və vəhy nədir?**

İlahi kitab deyilincə, Allahın peyğəmbərləri vastiəsi ilə insanlara bildirdiyi hökmlər, əmrlər, qadağanlar və s. nəzərdə tutulur.

Vəhy deyilincə isə, Allah tərəfindən elçiləri vastiəsilə və ya birbaşa peyğəmbərlərə çatdırılan dəqiq bilgi nəzərdə tutulur.

Müqəddəs kitabımız Qurani-Kərim vəhy yoluyla Peyğəmbərimiz Həzrət Məhəmmədə (səllallahu əleyhi və səlləm) 23 il ərzində nazil olmuş və heç bir dəyişikliyə uğramadan bu günümüzə qədər gəlib çatmış, qiyamətə qədər də davam edəcəkdir.

❁ ❁ ❁

**İlahi kitablar və səhifələr (sühuf) hansılardır?**

Hər bir müsəlmanın Allahın göndərdiyi ilahi kitabların hamısına inanması fərzdir. Ancaq Qurani-Kərimdən başqa digər ilahi kitablar, sonradan pozulmuşdur.

Ona görə də kitabların pozulmuş halına deyil, əslinə inanmaq lazımdır. Allah-Təala tərəfindən peyğəmbərlərə göndərilən kitabların bəziləri bir neçə səhifədən ibarət olmuşdur. Bunlara "sühuf" deyilir. Digərlərinə isə "dörd böyük kitab" deyilir.

Səhifələr 100 ədəd olub bu peyğəmbərlərə göndərilmişdir:

Həzrət Adəmə (ə.s)– 10 səhifə

Həzrət Şitə (ə.s)– 50 səhifə

Həzrət İdrisə (ə.s)– 30 səhifə

Həzrət İbrahimə (ə.s)– 10 səhifə

Dörd böyük kitabın adları və göndərildikləri peyğəmbərlər isə bunlardır:

Həzrət Musaya (ə.s)– Tövrat

Həzrət Davuda (ə.s)– Zəbur

Həzrət İsaya (ə.s)– İncil

Həzrət Məhəmmədə (səllallahu əleyhi və səlləm)– Qurani-Kərim göndərilmişdir. Qurani-Kərimdən başqa digər üç ilahi kitabın əsli insanlar tərəfindən təhrif edilmiş və pozulmuşdur.

❁ ❁ ❁

**Qurani-Kərimin nazil olmasını izah edin?**

Peyğəmbərimizə peyğəmbərlik verilməmişdən əvvəl O, "Hira" mağarasında ibadətlə məşğul olurdu. 610-cu ilin Ramazan ayında bir bazar ertəsi günü yenə hira mağarasına gedərək ibadətlə məşğul idi. Bu

anda böyük mələk Cəbrail (ə.s) Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) yanına gələrək "Ələq" surəsinin ilk beş ayəsini nazil etdi.

Bu beş ayənin mənası belədir:

"Yaradan Rəbbinin adı ilə oxu!

O, insanı laxtalanmış qandan yaratdı.

Oxu! Rəbbin ən böyük kərəm sahibidir!

O Rəbbin ki, qələmlə yazmağı öyrətdi.

İnsana bilmədiklərini O, öyrətdi."

❁ ❁ ❁

**Qurani-Kərimin xüsusiyyətləri nələrdir?**

Qurani-Kərim Peyğəmbərimizə endiyi şəkildə, heç bir dəyişikliyə uğramadan bu günə qədər gəlib çatmış və qiyamətə qədər beləcə davam edəcəkdir.

Qurani-Kərim digər ilahi kitablar kimi cəm halda deyil, 23 il ərzində yavaş-yavaş, hissə-hissə, ayə-ayə enmişdir.

Qurani-Kərim son ilahi kitabdır.

Qurani-Kərim bütün insanlara göndərilmişdir.

Qurani-Kərimi oxumağın savabı haqqında Peyğəmbərimizin mübarək sözlərindən söyləyə bilərsənmi?

Bəli, bu barədə çox hədisi-şəriflər vardır. Onlardan bəziləri belədir:

"Sizin ən xeyirliniz Quranı öyrənən və onu başqasına öyrədəndir."

"Kim Qurani-Kərimi oxuyar və onun buyuruqlarına əməl edərsə, qiyamət günü onun ata və anasına elə bir tac qoyullar ki, aydınlığı günəşin aydınlığı kimi olar. İndi siz oxuyanın özünün qazandığı savabı düşünün."

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Əbu Zərə (r.a) dedi: "Səhər evdən çıxıb sənin Allahın kitabından bir ayə öyrənməyin, 100 rükət (nafilə) namaz qılmağından daha xeyirlidir."

"Kim Qurani-Kərimi oxuyar və əzbərləyərsə, haram etdiyini haram və halal etdiyini də halal bilərsə, Allah onu cənnətə qoyar və qohum-əqrəbasından cəhənnəmlik olan on nəfərə də şəfaətçi edər."

❁ ❁ ❁

**Peyğəmbərlərə və peyğəmbərliyə ehtiyac vardırmı?**

Peyğənbərlərə ehtiyac vardır. Çünki peyğəmbərlik Allah ilə insanlar arasında bir elçilik vəzifəsidir. Allah bu vəzifəyə ən yaxşı qullarını seçər. Peyğəmbərlər insanlara yol göstərmək üçün seçilmişlər.

Əgər Allah-Təala Peyğəmbər olaraq öz elçilərini göndərməsəydi onda insanlar, öz ağılları ilə Allahı anlaya bilsələr də, Onun yüksək sifətlərini qavraya bilməzdilər. Ona necə ibadət etmək lazım olduğunu, axirət həyatını, kimlərin mükafatlanacağını, kimlərin cəza görəcəyini, dünya və axirətdəki xoşbəxtlik yollarını bilməzdilər. Allah-Təala bu həqiqətləri insanlara öyrətmək üçün peyğəmbərlərini göndərmişdir.

❁ ❁ ❁

**Peyğəmbərlərin vəzifələri nədir?**

Peyğəmbərlərin vəzifəsi Allahın hökmlərini, qadağanlarını insanlara çatdırmaq, onlara doğru yolu göstərmək, əxlaq qaydalarını öyrətmək və bu sahələrdə insanlara nümunə olmaqdır.

❁ ❁ ❁

**Peyğəmbərlərin xüsusiyyətləri nələrdir?**

Peyğəmbərlər doğru insanlardır, əsla yalan danışmazlar. (Sidq)

Peyğəmbərlər əmin insanlardır, heç vaxt əmanətə xəyanət etməzlər. (Əmanət)

Peyğəmbərlər ağıllı və oyanıq insanlardır. (Fətanət)

Peyğəmbərlər məsumdurlar, günah işləməzlər. (İsmət)

Peyğəmbərlər, Allahın onlara bildirdiyi şeyləri olduğu kimi insanlara çatdırırlar. (Təbliğ)

❁ ❁ ❁

**Möcüzə və kəramət nədir?**

Peyğəmbərlərin peyğəmbər olduğunu sübut etmək üçün Allahın köməyi ilə göstərdikləri qeyri-adi hadisələrdir. Möcüzə yalnız peyğəmbərlərə məxsusdur. Kəramət isə Allahın köməyi ilə övlüyalarda təsadüf edilən qeyri-adi hadisələrdir. Peyğəmbərimizin ən böyük möcüzəsi Qurani-Kərimdir.

❁ ❁ ❁

**Axirət günü nə deməkdir?**

İnsanların və bütün canlıların bir sonu olduğu kimi üzərində yaşadığımız bu dünyanın da sonu olacaqdır. Kainatın bu pozulması hadisəsinə "Qiyamət hadisəsi" adı verilmişdir. Hər bir insan dünyadakı ömrü başa çatandan sonra ölür və ölümdən sonra insanın həyatı ruhu vasitəsi ilə yenə davam edir ki, bu ölümdən sonrakı həyata "axirət həyatı" adı verilir.

Qiyamət hadisəsi zamanı Allah hər şeyi yox edəcəkdir. Sonra yenidən aləmi və insanı yaradacaq, insanları dünyadakı yaşayışlarına görə hesaba çəkəcəkdir. Yaxşıları cənnətə, pisləri də cəhənnəmə qoyacaqdır. Axirət həyatına inanmaq Allahın insanlara olan əmridir. Axirət həyatına inanmayan insan müsəlman sayıla bilməz.

**Qədər və Qəza nədir?**

Qədər və qəza:

Qədər, kainatda olacaq hadisələrin zamanını, yerini, necə olacaqlarını Allahın əvvəldən bilməsi və bunu təqdir etməsidir (planlaşdırmasıdır).

Qəza, Allahın əzəldə təqdir etdiyi hadisələrin vaxtı gələndə bu təqdirə (plana) uyğun olaraq yaratmasına deyilir. Kainatda hər şey Allhaın bilməsi, istəməsi və yaratması ilə olur. Ondan başqa yaradıcı yoxdur.

**İnsanların Allah qatında cavabdehliyi necə olur?**

İnsanın işləri iki cürdür:

1- Öz istəyinin xaricində Allahın yaratması ilə olan işlərdir. Məsələn; ürəyin işləməsi, əllərin titrəməsi, boyun uzun və ya qısa olması. Bunlar insanın əlində deyil. Allahın əlində olduğuna görə insan bu işlərə cavabdeh deyildir.

2- İnsanın istəyinə bağlı olaraq Allahın yaratdığı işlərdir. Məsələn; insanın bədəni ilə, ayaqları ilə, əlləri ilə və digər orqanları ilə etdiyi işlərdir. Bu işlər insanın öz istəyi ilə olduğuna görə insanlar bu işlərə görə cavabdehdirlər.

Hər şeyi yaradan Allahdır. Allah-Təala insanlara iradə vermişdir. İnsan Allahın verdiyi bu iradə ilə yaxşını seçərsə, Allah yaxşını yaradar. Ancaq insan iradəsi ilə pis işi seçərsə, Allah pisi yaradar. İnsan iradəsi ilə yaxşını seçərsə, mükafat, pisi seçərsə, cəza görəcəkdir.

❁ ❁ ❁

**İslam dinində çalışmağın əhəmiyyətini izah edə bilərsənmi?**

Ən mükəmməl din olan islam dininin qayəsi, insanların xoşbəxtliyidir. İslam dini həm dünyada, həm də axirətdə xoşbəxtlik yollarını göstərmişdir. Lakin bu xoşbəxtlik çalışmaqla əldə edilir.

Allah-Təala Qurani Kərimdə buyurur: "Həqiqətən, insan üçün çalışdığından başqası yoxdur."

Sevgili Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) buyurur: "İnsanın yediyi ən xeyirli yemək, əlinin əməyi ilə qazandığı yeməkdir".

❁ ❁ ❁



# D U A

**Ey Allahım! Mənə rəhmət qapılarını aç!**

**Allahım! Faydasız elmdən, ürpərməyən qəlbdən, doymayan nəfsdən, qəbul edilməyən duadan Sənə sığınıram!**

**Allahım! Bizlərə ruzi olaraq verdiklərini bərəkətləndir, bizi cəhənnəm əzabından qoru!**



# III FƏSİL

# İBADƏT

**İbadət nədir və nə üçün ibadət edirik?**

İbadət Allaha təzim və hörmət göstərmək, Onun bizə verdiyi nemətlərə qarşı şükran borcumuzu yerinə yetirməkdir.

Allah bizə görən gözlər, eşidən qulaqlar, danışan dil, digər canlılardan fərqli olaraq ağıl kimi nemətlər verdi və bizi digər varlıqlardan üstün yaratdı.

Bundan əlavə bizə peyğəmbərlər göndərərək dünyada və axirətdə xoşbəxt olmağın yollarını göstərdi. Bu nemətlərə əvəz olaraq bizdən onu tanımağımızı və Ona ibadət etməyimizi istədi.

Yaranmağımızın məqsədi Allahı tanımaq və Ona ibadət etməkdir. Əgər biz Allaha qarşı qulluq vəzifələrini yerinə yetirər və Onun razılığını qazanarıqsa, Allah bizə dünyadakından daha çox neməti axirətdə verəcək və bizi cənəntdə xoşbəxtliyə qovuşduracaqdır.

❁ ❁ ❁

**Neçə növ ibadət vardır?**

Üç növ ibadət vardır:

1. Bədən ilə edilən ibadətlər. (Namaz qılmaq, oruc tutmaq və s.)

2. Mal ilə edilən ibadətlər. (Zəkat vermək, Qurban kəsmək kimi).

3. Həm mal, həm də bədən ilə edilən ibadətlər. (Həcc kimi)

❁ ❁ ❁

**İbadətin dərəcələri nələrdir?**

İbadətin dərəcələri:

1. Allaha, ibadətə layiq olduğu üçün ibadət etmək.

Heç bir qarşılıq gözləmədən edilən bu ibadət, ibadətin ən yüksək dərəcəsidir.

2. Cənnətə girməyi ümid edərək və cəhənnəmdən qorxaraq ibadət etmək.

Bu cür ibadətdə Allahın əmri yerinə yetirilsə də, ibadət mənfəət üçün deyil Allah rizası üçün edilməlidir.

3. Dünyada bir fayda əldə etmək üçün ibadət etmək.

İbadətin ən aşağı dərəcəsi də budur. Buna ibadət demək belə doğru deyildir. Çünki Allah üçün edilməyən ibadətin heç bir dəyəri yoxdur.

❁ ❁ ❁

**İbadətin faydaları nələrdir?**

İbadətin faydalarından bəziləri bunlardır:

√ İbadət etmək Allahın əmridir. Allahın əmr etdiyi şeylərdə mütləq bir fayda olduğuna görə, ibadətin də faydaları vardır:

√ İbadət edən şəxs, bədənini və paltarını təmiz tutmağa məcburdur.

√ İbadət ruhun qidası olduğu üçün ruhumuzdakı boşluğu doldurur.

√ İbadət insanı pisliklərdən uzaqlaşdıraraq gözəl əxlaqa yaxınlaşdırır.

√ İbadət insanı ümidsizlikdən qurtarır.

❁ ❁ ❁

**İslam nədir və şərtləri hansılardır?**

İslam: Peyğəmbərimizin Allah-Təaladan gətirdiyi hökmləri qəbul etmək, Allaha və Peyğəmbərinə itaət edərək bunları öz həyatında yaşayaraq göstərməkdir.

İslamın şərti 5-dir:

1. Kəlmeyi-Şəhadət gətirmək,

2. Namaz qılmaq. (Gündə 5 vaxt),

3. Oruc tutmaq. (Ramazan ayında),

4. Zəkat vermək. (Varlı insanların öz var-dövlətinin 1/40-ni Allah yolunda verməsi),

5. Həccə getmək. (Ömründə bir dəfə Kəbəni ziyarət edərək həcc etmək).

**Mükəlləf (dinən məsul şəxs) kimə deyilir?**

Yetkinlik yaşına çatan, ağıllı müsəlmana mükkəlləf deyilir. Oğlanlarda yaş həddi: 12- 15, qızlarda: 9 - 12 yaşdır.

Mükəlləfin etmiş olduğu hər bir iş şəriətə görə bir hökm ifadə edir. Həmin hökmləri belə sıralamaq olar:

1. Fərz: Dinimizə görə yerinə yetirilməsi qəti əmr olunan işlərdir. (Namaz, oruc və s. kimi).

Fərzin hökmü: İşləyən savab qazanır, üzrsüz olaraq tərk edən günah qazanır və əzəblandırılır. İnkar edən isə dindən çıxır, kafir olur.

2. Vacib: Fərz qədər qəti olmayıb, lakin yerinə yetirilməsinin vacibliyi qüvvətli dəlillərlə sübut edilən hərəkətlərdir. (Bayram, Vitr namazları, Qurban kəsmək kimi.)

Vacibin hökmü: Vacibi işləyən savab, tərk edən isə günah qazanır.

3. Sünnə: Vaciblərdən və fərzlərdən başqa Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) savab qazanmaq məqsədi ilə etdiyi ibadətlərdir. (5 vaxt namazın sünnələri kimi.)

Sünnənin hökmü: Sünnələri işləyən savab qazanır və Peyğəmbərimizin şəfaətinə nail olur. Qəsdən tərk edən isə şəfaətdən məhrum qalır və töhmətlənir.

4. Müstəhəb: Ediləndə savab qazanılan, edilməyəndə isə, günah qazanılmayan işlərdir. (Quşluq namazı kimi.)

Müstəhəbin hökmü: İşləyənlər savab qazanar, tərk edənlər günah qazanmaz.

5. Mübah: Yerinə yetirilməsində və ya tərk edilməsində savab və günah olmayan işlərdir. (Oturmaq, yemək, yatmaq və s. kimi.) .

Mübahın hökmü : Mübah sərbəstlik demək olduğuna görə, işləyən savab, tərk edən isə günah qazanmaz.

6. Haram : İşlənməsi dinimizə görə qəti qadağan olan işlərdir. (Haqsız yerə adam öldürmək, yalan danışmaq, (spirtli) içki içmək v.s. kimi).

Haramın hökmü: Haram işləyən günah qazanır, Allah qorxusundan tərk edən də savab qazanır, inkar edən isə dindən çıxır, kafir olur.

7. Məkruh: Haram qədər qəti olmayıb, lakin dinimizə görə işlənməsi istənilməyən işlərdir.

Məkruhun hökmü: Məkruhu işləyən gunah qazanar, tərk edən savab qazanar. (Vacibləri tərk etmək, namazda sağa-sola baxmaq kimi).

8. Müfsid: Başlanmış bir ibadəti pozmağa deyilir. (Oruclu ikən bilə-bilə yeyib-içmək, namazda gülmək kimi.)

Müfsidin hökmü: Bilərəkdən başlanmış bir ibadəti pozmaq əzaba səbəb olur.



## DUA

**√ Bizləri yedirib içirdən və bizi müsəlman edən Allaha həmd olsun!**

**√ Allahım! Sənin adını anaraq yatır və oyanıram (Ölür və dirilirəm).**

**√ Bizi öldürdükdən sonra diriləndən (Yuxudan sonra oyadan) Allaha həmd olsun.**

## OXU MATERİALI

### *ALLAH BİZDƏN NƏ İSTƏYİR?*

Fatimə, bağçadakı çəmənlikdə işləyən atasının yanında oynayırdı.

Atası:

—Qızım, bir stəkan su gətirə bilərsənmi? – dedi.

Fatimə gedib atasına su gətirdi. Atası suyu içərkən, azan oxunmağa başladı. Suyunu içən ata:

*-Çox sağ ol, qızım! Atanın istəyini yerinə yetirdin. İndi növbə Allahımızın tələblərini yerinə yetirməyindir,-dedi.*

*Fatimə gözlərini iri-iri açıb atasına təəccüblə:*

*—Ata, Allah da məndən bir şey istəyir? –deyə soruşdu. Atası:*

*—Bəli, əzanı eşidirsənmi?- dedi. Fatimə:*

*—Bəli,- dedi.*

*—Bax, azan səsi, biz müsəlmanlara Allahımızın "namaz qılın" tələb və əmrini xatırladır. Hər azanı eşidəndə biz, Allahımızın bu əmrini xatırlayıb yerinə yetirməliyik.*

*—Atacan, Allahın biz uşaqlardan da istədiyi şey var?*

*—Qızım, Allah-Təala hər bir müsəlman övladın yetkinlik yaşına çatmadan əvvəl namazın necə qılınacağını öyrənməsi və ata-anaya, müəllimə hörmət bəsləməsini, böyük-kiçik hər kəsə yaxşı münasibət göstərməsini tələb edir.*

*—Ata, onda mən də bunları öyrənmək istəyirəm.*

*—Gözlə, sabah cümə namazı üçün məscidə gedəndə səni də özümlə aparıb, müəllimlə tanış edəcəyəm, Orada Allaha ibadətin qayda-qanunlarını öyrənərsən. Sonra da bizimlə namaz qılarsan.*

## D U A



**√ Allahım! Qəlbimdə nur, qulağımda nur, gözümdə nur, üstümdə nur, altımda nur və nəfsimdə nur yarat!**

## IV FƏSİL

# TƏMİZLİK

(Dəstəmaz-Qüsl-Təyəmmüm)

**Təmizlik və İslamın təmizliyə verdiyi əhəmiyyət haqqında danış?**

İslam dini təmizlik dinidir. Müsəlman təmiz insan deməkdir. Allah-Təala Qurani Kərimdə buyurur: "Allah çoxlu tövbə edənləri və təmizlənənləri sevər" Sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) buyurur: "Təmizlik imanın yarısıdır" Dinimiz bədən təmizliyi ilə birlikdə qəlbimizin də təmiz olmasını əmr etmişdir.

❁ ❁ ❁

**Dəstəmazın Fəziləti barədə nə deyə bilərsən?**

Dəstəmaz, bədənin müəyyən orqanlarını üsuluna görə təmizləməyə deyilir. Dəstəmazın fəziləti və faydası haqqında sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) buyurur:

"Bir müsəlman dəstəmaz alarkən əllərini yuyunca, əlləri ilə etdiyi günahları bağışlanır, üzünü yuyarkən gözləri ilə etdiyi günahlar bağışlanır, başını məsh edərkən qulaqları ilə işlədiyi günahları, ayaqlarını yuyarkən isə ayaqları ilə etdiyi günahlar bağışlanır."

❁ ❁ ❁

**Dəstəmazın fərzləri neçədir və nələrdir?**

Dəstəmazın fərzi dörddür və bunlardır.

1. Üzü yumaq,
2. Əlləri dirsəklərlə bərabər yumaq,
3. Başın dörddə birini məsh etmək.
4. Ayaqları topuqlarla bərabər yumaq.

❁ ❁ ❁

**Dəstəmazın sünnələri nələrdir?**

Bunlardır:

√ Dəstəmaz almağa niyyət etmək. (Allah rızası üçün niyyət etdim dəstəmaz almağa)

√ Əuzü-bismillah çəkmək.

√ İlk əvvəl əlləri biləklərlə birgə yumaq.

√ Ağzı misvak (fırça) ilə təmizləmək.

√ Dəstəmaz üzvlərini fasiləsiz yumaq.

√ Ağıza üç dəfə su alıb, hər dəfə də boşaltmaq

√ Buruna üç dəfə su çəkmək, hər dəfəsində sol əl ilə təmizləmək, (oruclu deyilsə)

√ Üzvləri sırası ilə yumaq və ya məsh etmək.

√ Hər üzvü üç dəfə yumaq.

√ Yumağa sağdan başlamaq

√ Qulaqları məsh etmək

√ Boynu məsh etmək.

√ Başın tamamını məsh etmək.

❁ ❁ ❁

**Dəstəmaz necə alınır?**

Sünnə üzrə dəstəmaz belə alınır:

1. İmkan varsa, qibləyə tərəf dönüb Allah üçün dəstəmaz almağa niyyət edilir.

2. Əllər biləklərə qədər üç dəfə yuyulur. Sonra sağ ovuc ilə ağıza 3 dəfə su alınıb hər dəfəsində ağız yaxalanır.

3. Sağ ovuca 3 dəfə su alınaraq buruna su çəkilir və

sol əl ilə burun silinib təmizlənir.

4. Üzün hər tərəfi saç bitimindən çənə altına və qulaqlara qədər yuyulur.

5. Əvvəl sağ qol, sonra da sol qol dirsəklərlə bərabər yuyulur.

6. Əllər yenidən su ilə isladıldıqdan sorna sağ əlin içi ilə başın dörddə biri məsh edilir.

7. Əllər isladılaraq şəhadət barmağı ilə qulağın içi, baş barmaq ilə qulağın arxa tərəfi, qalan barmaqların üst tərəfi ilə boyun məsh edilir.

8. Əvvəl sağ ayaq, sonra sol ayaq topuqlarla birlikdə yuyulur.

❁ ❁ ❁

**Dəstəmazın ədəbləri nələrdir?**

Bunlardır:

√ Namaz vaxtı girmədən əvvəl dəstəmaz almaq.

√ Dəstəmaz alarkən qibləyə tərəf dönmək.

√ Suyun sıçramaması üçün yüksək bir yerdə dəstəmaz almaq.

√ Dəstəmaz əsnasında başqalarından yardım istəməmək.

√ Suyu nə az, nə də çox işlətmək.

√ Məcbur olmasa danışmamaq.

√ Dəstəmazdan sonra qibləyə dönərək kəlmeyi-şəhadət gətirmək.

❁ ❁ ❁

**Dəstəmazı pozan amillər hansılardır?**

Bunlardır :

√ Bədənin hər hansı bir yerindən qan, irin, su çıxıb yayılması.

√ Ağız dolusu qusmaq.

√ Tüpürdüyü zaman tüpürcəyinin yarısı və ya yarıdan çoxu nun qan olması.

√ Kiçik və ya böyük bayıra çıxmaq. (tualet ehtiyacını görmək).

√ Ürəyi getmək.

√ Sərxoş olmaq.

√ Yuxlamaq.

√ Yel buraxmaq.

√ Namazda (başqası eşidəcək qədər) gülmək.

**Dəstəmazı olmayan adam hansı işləri yerinə yetirə bilməz?**

Bu işləri yerinə yetirə bilməz:

√ Namaz qıla bilməz .

√ Qurana əl vura bilməz.

√ Tilavət secdəsi edə bilməz.

√ Kəbəni təvaf edə bilməz.

❁ ❁ ❁

**Qüsl nədir və fərzləri hansılardır?**

Qüsl, quru bir yer qalmamaq şərti ilə bədənin tamamilə bütöv yuyulması surətiylə alınan dəstəmaza deyilir.

Qüslün fərzi üçdür:

1. Ağzını yaxşıca yumaq.
2. Burnunu yaxşıca yumaq.
3. Bütöv bədəni quru yer qalmayacaq şəkildə yumaq.

❁ ❁ ❁

**Qüsl necə alınır?**

Əvvəlcə paltarı soyunub üzünü ya şərqə, ya da qərbə çevirir (qibləyə çevirmək olmaz.). Ədəb yeri örtülür. Sonra bədəndə pislik varsa təmizlənir. Əvvəlcə dəstəmaz alınır. Sonra növbə ilə əvvəl baş, sonra bədənin sağ tərəfi, sonra da sol tərəfi yuyulur.

❁ ❁ ❁

**Təyəmmüm nədir və fərzləri hansılardır?**

Suyun tapılmadığı və ya tapıldığı ancaq işlədilə bilmədiyi təqdirdə (dəstəmaza yararsız olduqda), təmiz torpaq ilə üzü və qolları məsh etmək deməkdir.

Təyəmmümün fərzi ikidir:

1. Niyyət etmək

2. Əlləri torpağa vurub üzü və qolları ayrı-ayrı məsh etmək.

❁ ❁ ❁

**Təyəmmüm necə edilir?**

Təyəmmüm edən şəxs ilk əvvəl təyəmmümə qəlbi və dili ilə niyyət etməlidir.

Əllərini (barmaqları açıq olduğu halda) təmiz bir torpağa və ya torpaq çinsindən olan bir maddəyə vuraraq irəli doğru sürtər, sonra geri çəkərək əlləri çox tozlu isə silkələyər. Bundan sonra iki əli ilə üzü bütövlükdə məsh edər. Beləcə torpağa əlləri birinci vuruş qurtarmış olar.

Sonra ikinci dəfə, birinci dəfəki kimi əllər torpağa vurulur, irəli-geri çəkilir və tozlar silkələnir, bundan sonra: sol əlin işarət barmağı ilə baş barmağını digər barmaqlardan ayırıb, qalan üç barmağın iç hissəsi ilə sağ əlin arxasını dirsəyə qədər məsh edər. Ayırmış olduğu barmaqlar ilə də qolun iç hissəsini məsh edər. Beləcə sağ qolun məshi alınar. Sol qol da bu şəkildə məsh edilərək təyəmmüm bitmiş olur.

❁ ❁ ❁

**Təyəmmümü pozan amillər hansılardır?**

Təyəmmümü pozan amillər bunlardır:

√ Dəstəmazi pozan və qüslü lazım edən şeylərin hamısı təyəmmümü də pozar.

√ Təyəmmümü lazım edən üzr halının aradan qalxması. Suyun tapılması və ya suyun işlədilməsinə imkan olması.

**Təyəmmüm nə vaxt edilir?**

Təyəmmüm bu hallarda edilir:

√ Su olmadığı vaxtda,

√ Su olub, lakin ondan istifadə etmək mümkün olmadıqda,

√ Xəstə olduqda (yaralı olub su yaraya zərər verərsə olduğu zaman).

❀ ❀ ❀



## OXU MATERİALI

### *SİZ KİMSİNİZ*

Bir rəvayətdə belə deyilmişdir:

-"Qiyamət günü namaz qılanların dərəcələrinə görə cənnətə göndərilmələri əmr edilir.

İlk təbəqədəkilərin üzləri ulduzlar kimi parıldayar. Onları mələklər qarşılayıb "Siz kimsiniz?" deyirlər. Onlar da belə cavab verirlər:

-"Biz Məhəmmədin (səllallahu əleyhi və səlləm) ümmətindənik. Dünyada ikən namaz qılardıq."

Mələklər də:

"Sizin dünyada ikən əməlləriniz nə idi?"-deyə soruşanda onlar belə cavab verirlər:

-"Biz azanı eşitdiyimiz zaman, dəstəmaz almağa qalxardıq. Bizə bunu etməyə heç bir şey maneçilik edə bilməzdi."

Bundan sonra mələklər deyərlər:

"İndi qovuşduğunuz bu hal sizə layiqdir."

Sonra ikinci təbəqənin insanları gəlir. Bunlar gözəllik və üzlərinin parlaqlığında əvvəlkilərdən daha üstündürlər. Bunların üzləri ay kimi parlayır.

Mələklər onlardan soruşurlar:

-"Siz kimsiniz?"

Onlar belə cavab verirlər:

"Biz dünyada ikən namaz qılan kimsələrik." deyəndə mələklər soruşur:

-"Sizin namazlarınız necə idi?"

Onlar belə cavab verirlər:

-"Biz namaz vaxtı girməmişdən əvvəl dəstəmazımızı alardıq." Mələklər onlara belə deyirlər:

-"Siz indi qovuşduğunuz bu hala layiqsiniz."

Sonra üçüncü təbəqədəkilər gəlir. Onların vəziyyətləri əvvəlkilərdən daha üstündür.

Mələklər onlardan da soruşur:

-"Sizin məkanınız daha yüksək və üzləriniz əvvəlkilərin hamısından daha parlaqdır. Sizlər kimlərsiniz." deyəndə onlar belə cavab verirlər:

-"Biz dünyada ikən namaz qılardıq."

Mələklər yenə soruşurlar:

-"Sizin namazlarınızın xüsusiyyəti nə idi?" deyəndə onlar belə cavab verir:

-"Biz, azana məsciddə qulaq asardıq. (azandan əvvəl dəstəmaz alıb məscidə girər, namaz vaxtına qədər oturub, azanı gözləyərdik.)"

Bundan sonra mələklər onlara belə deyirlər:

-"Siz də bu qovuşduğunuz nemətlərə layiqsiniz."

## D U A



√ **Biz zəif kəslərik, minarələri**
**Sən azansız buraxma, Allahım!**
**Müsəlmanlıqla yoğrulan yurdu,**
**Müsəlmansız buraxma, Allahım!**

# V FƏSİL

# NAMAZ

**Namazın əhəmiyyətini izah edin?**

İnsanların ilk vəzifəsi Allahın varlığına və birliyinə Həzrət Məhəmmədin (səllallahu əleyhi və səlləm) Allahın Peyğəmbəri olduğuna inanmaqdır. Namaz, ruhu təmizləyən, qəlbi nurlandıran, insanı Allahın hüzuruna yüksəldən bir ibadətdir. Sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) "Namaz dinin dirəyidir" buyuraraq namazın dinimizdə çox əhəmiyyətli bir ibadət olduğunu bildirmişdir.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) buyurur: "Deyin görüm, sizdən biriniz qapısının qarşısında axan bir çayda hər gün beş dəfə yuyunsa onda kir-pasdan bir əsər qalarmı?"

Sahabələr: "Heç bir kir və pislik qalmaz" dedilər. Bunun müqabilində Rəsulullah (s.a.v) buyurdu ki; "Beş vaxt namaz da eyni bunun kimidir. Allah-Təala namazlar səbəbiylə xətaları, günahları yox edər".

❁ ❁ ❁

**Namaz kimlərə fərz qılınmışdır?**

Bir şəxsə namazın fərz olması üçün bu şərtlər olmalıdır:

1. Müsəlman olmaq,
2. Yetkinlik yaşına çatmaq,
3. Ağıllı olmaq.

❁ ❁ ❁

**Nə zaman namaz qılınmaz?**

Bu vaxtlarda namaz qılınmaz:

1. Günəş doğarkən
2. Günəş tam ortaya gəldiyi vaxt
3. Günəş batarkən

Qeyd: Əgər ikindi namazının fərzi qılınmamışsa günəş batarkən də qılına bilər.

**Namazın neçə növü vardır və nələrdir?**

Namazlar üç növdür:

1. Fərz namazlar. (Beş vaxt namaz, cümə namazı, cənazə namazı)

2. Vacib namazlar. (Vitr namazı, bayram namazları)

3. Nafilə namazlar. (sünnə və müstəhəb namazlar)

❁ ❁ ❁

**Beş vaxt namazın vaxtları haqqında danışın?**

Beş vaxt namazın vaxtları:

1. Sübh Namazı:

Səhərə qarşı dan yerinin ağarmağa başlamasından günün çıxmasına qədər olan zamandır.

2. Günorta Namazı:

Günəş tam təpədə olub, kölgə şərq tərəfə uzanmağa başladığı andan etibarən hər şeyin kölgəsinin iki qatı olana qədər davam edən zamandır.

3. İlkindi Namazı:

Günorta namazı vaxtının qutardığı vaxtdan başlayıb, günəşin batmasına qədər olan zamandır.

4. Axşam Namazı:

Günəş batdıqdan sonra başlayıb, günəşin battığı yerdəki qırmızılıq və ya ondan sonra gələn bəyazlıq qeyb olana qədər olan zamandır.

5. Yatsı (Gecə) Namazı:

Axşam namazının vaxtı çıxdıqdan sonra başlayıb, səhər namazının vaxtı girənə qədər olan zamandır.

**Beş vaxt namazın rükətləri haqqında danışın?**

Beş vaxt namazın rükətləri:

1. Sübh Namazı:

*Səhər namazı 4 rükətdir. 2 rükəti sünnə, 2 rükəti fərzdir.*

2. Günorta Namazı:

Günorta namazı 10 rükətdir. 4 rükəti ilk sünnə, 4 rükəti fərz, 2 rükəti isə son sünnəsidir.

3. İlkindi Namazı

İkindi namazı 8 rükətdir. 4 rükəti sünnə, 4 rükəti fərzdir.

4. Axşam Namazı:

Axşam namazı 5 rükətdir. 3 rükəti fərz, 2 rükəti sünnəsidir.

5. Yatsı (Gecə) Namazı:

Yatsı namazı 10 rükətdir. 4 rükəti ilk sünnə, 4 rükəti fərz, 2 rükəti isə son sünnəsidir.

❁ ❁ ❁

**Cümə və meyit namazları neçə rükətdir?**

Cümə Namazı: 10 rükətdir: 4 ilk sünnə, 2 fərz, 4 son sünnə.

Cənazə Namazı: Rükətsiz fərzi kifayə olan bir namazdır.

❁ ❁ ❁

**Vacib Namazlar və rükətləri barədə danışın?**

Vacib namazlar bunlardır:

1. Vitr namazı – 3 rükətdir.
2. Ramazan bayramı namazı – 2 rükətdir.
3. Qurban bayramı namazı – 2 rükətdir.

Qeyd: Fərz və vacib namazlardan başqa qılınan namazlara “Nafilə” namazlar deyilir.

❁ ❁ ❁

**Namazın Fərzləri neçədir, şərtləri və rükünləri nəyə deyilir?**

Namazın fərzləri 12-dir. Bunlardan 6-sı namazın xaricindədir ki,

bunlara namazın şərtləri deyilir. 6-sı isə daxilindədir ki, bunlara da namazın rükünləri deyilir.

❁ ❁ ❁

**Namazın Şərtləri hansılardır?**

Bunlardır:

1. Hədəsdən təharət: (Mənəvi təmizlik):

Namaz qılacaq olan bir adamın qüsl etməsi lazım isə qüsl etmək, dəstəmazı yox isə dəstəmaz almaq, əgər su yox isə qüsl və dəstəmaz əvəzinə təyəmmüm etmək deməkdir.

2. Nəcasətdən təharət (Maddi təmizlik):

Namaz qılacaq olan bir adamın bədənini, paltarını və namaz qılacağı yeri pisliklərdən təmizləmək deməkdir.

3. Sətri- övrət (ədəb yerlərini örtmək):

Açılması (görülməsi) eyib (haram) olan yerlərin örtülməsi deməkdir. Namazda kişilərin göbəklə diz qapağı arası, qadınların əl, üz və ayaqlarından başqa hər tərəfinin örtülü olması fərzdir.

4. İstiqbali-qiblə (Qibləyə dönmək):

Namaz qılacaq olan şəxsin qibləyə, yəni Kəbəyə tərəf dönməsi fərzdir. Kəbə Ərəbistanın Məkkə şəhərində olan muqəddəs məbəddir.

5.Vaxt (Namazı vaxtında qılmaq):

Fərz və vacib namazları qıla bilmək üçün özlərinə məxsus olan vaxtın girməsi şərtdir. Vaxtından əvvəl qılınan namazlar mötəbər deyil.

6. Niyyət (Namaza niyyət etmək):

Hansı namazı qılacağını ürəyindən kəçirməkdir. Əgər camaatla namaz qılırsa, imama tabe olduğunu da ürəyindən kəçirməlidir. Ağzı ilə də söyləməsi sünnədir. Namazı qıldıran imam özü namaz qılmağa niyyət etdiyi kimi, camaata qıldırmağa da  niyyət etməlidir.

**Namazın Rükünləri hansılardır?**

Bunlardır:

1. İftitah təkbiri (Başlama təkbiri):

Namazın əvvəlində, yəni namaza başlarkən Allah-Təalanın adlarından birini söyləmək deməkdir ki, bu fərzdir. Fəqət "Allahu –Əkbər" deyərək namaza başlamaq vacibdir.

2. Qiyam (Ayaqüstə durmaq):

Namazda ayaq üstündə dayanmaq deməkdir. Ayaqüstə dayanmağa gücü çatan bir adamın fərz namazları və vitr namazını qılanda ayaqüstə başlaması və ayaqüstə davam etməsi fərzdir. Buna qiyam deyilir.

3. Qiraət (Quran oxumaq):

Namazda Quran oxumaq deməkdir. Namaz qılan insanın qiyamda ikən Quranı-Kərim oxuması fərzdir. Bir ayə də olsa Quran oxumadan qılınmış namaz qəbul olunmaz.

4. Rüku (Rükuya əyilmək):

Qiraətdən sonra əllər diz qapaqlarına çatacaq qədər əyilməkdir. Mümkün qədər baş ilə bel eyni səviyyədə düz olmalıdır.

5. Sücud (Səcdəyə getmək):

Rükudan sonra ayaqlar, dizlər və əllərlə birlikdə alnı yerə qoymaqdır. Hər bir rükətdə iki dəfə səcdə etmək fərzdir. Səcdədə alın yerin sərtliyini hiss etməlidir. Səcdədə yalnız burnu yerə qoymaq bəs eləməz.

6. Qadeyi-əxirə (son oturuş):

Namazın sonunda "Əttəhiyyatü" duasını oxuyacaq qədər oturmaq deməkdir. Bu da fərzdir.

❁ ❁ ❁

**Namazın vacibləri nələrdir?**

Bunlardır:

√ Fatihə surəsini oxumaq, sonra bir surə və ya bir neçə ayə oxumaq İki səcdəni ardıcıllıqla icra etmək və səcdədə burnu yerə toxundurmaq.

√ Üç və dörd rükətli namazlarda ikinci rükətdən sonra oturmaq (qadəyi-ula birinci oturuş) və "Əttəhiyyatü" duasını oxumaq.

√ Namazın sonunda salam vermək

√ Hər fərzi lazım olan şəkildə yerinə yetirmək və bir fərzdən digərinə keçərkən "Sübhanallah!"-deyəcək qədər gözləmək.

√ Camaatla qılınan namazlarda imamın qiraəti gizli (səssiz) və ya aşkar oxumağa riayət etməsi.

√ Vitr namazlarında qunut duaları deyilən duaların oxunması.

√ Namazda yanlışlıq edərkən səhv səcdəsi etmək.

❁ ❁ ❁

**Namazın sünnələri nələrdir?**

Bunlardır:

√ Sübhanəkə duasını oxumaq

√ Əuzü- Bismillah çəkmək

√ Fatihə surəsindən sonra (alçaq səslə) "Amin!"-demək

√ Rüku təkbiri alma

√ Rükuda ən azı üç dəfə "Sübhanə Rabbiyəl-Azim" demək.

√ Rukudan qalxanda "Səmiallahu Limən Hamidəh" və rukudan qalxıb düz durduqda "Rabbəna Ləkəl-hamd" demək

√ Səcdədə ən az üç dəfə "Sübhanə Rabbiyəl-ələ" demək

√ Axırıncı oturuşda "Əttəhiyyatü" duasından sonra "Salli-Barik" və "Rabbəna" dualarını oxumaq

√ Salam verərkən başı birinci sağa, sonra isə sola çevirərək "Əssələlamu aləykum və rahmətullah" demək.

❁ ❁ ❁

**Namazın ədəbləri nələrdir?**

Bunlardır:

√ Namazda diqqətin yayılmaması üçün oyaq olmaq

√ Namazda ayaqüstə ikən səcdə etdiyi yerə baxmaq

√ Rükuda ayaqlarının ucuna baxmaq

√ Oturarkən qucağa baxmaq

√ Səcdədə ikən burna baxmaq

√ Salam verərkən çiyinlərə baxmaq.

❁ ❁ ❁

**Namazı pozan amillər nələrdir?**

Bunlardır:

√ Namazda ikən: Danışmaq, yeyib-içmək, söykənərək yuxlamaq, özü eşidəcək qədər gülmək, üzürsüz olaraq öskürmək.

√ Namaz içində ayələri mənası pozulacaq şəkildə səhv oxumaq.

√ (Sübh) namazı qılarkən günəşin doğması.

√ Arada bir pərdə, arakəsmə və ya məsafə olmadan kişilərlə qadınların bir səfdə (sırada) namaz qılması.

❁ ❁ ❁

**Namaz necə qılınır?**

Namaz belə qılınır:

1. Ayaqların arası azı 4 barmaq açılır və düzgün şəkildə qibləyə dönülür.

2. Niyyət edilir. (Allah rizası üçün niyyət etdim filan namazın fərzini (sünnəsini) qılmağa.

3. “Allahu Əkbər” deyərək təkbir alınır.

4. Təkbirdən sonra əllər bağlanır.

5. "Sübhanəkə", "Əuzü-bismillah", "Fatihə" surəsi və "Qurandan bir surə" ardıcıllıqla oxunur.

6. "Allahu Əkbər" deyilərək rükuya gedilir və üç dəfə "Sübhanə Rabbiyəl azim"-deyilir. Rükuda ikən ayaqların ucuna baxılır.

7. "Səmiallahü limən hamidəh"-deyərək rükudan qalxılıb ayaqüstə "Rabbəna ləkəl hamd" deyilir.

8. "Allahu Əkbər"-deyərək səcdəyə gedilir. Üç dəfə "Sübhanə Rabbiyəl ələ" -deylilir.

9. "Allahu Əkbər"-deyərək başını səcdədən qaldırıb dizlər üstə oturulur. Azı "sübhanəllah" deyəcək qədər gözlənir.

10. "Allahu Əkbər"-deyərək ikinci dəfə səcdəyə gedilir.

11. "Allah Əkbər"-deyərək səcdədən başını qaldırıb ayağa qalxılır və ikinci rükətə başlanır.

12. Növbə ilə yenə "Bismillah", "Fatihə", bir surə oxunur.

13. Rüku və səcdələr edilir.

14. Oturaraq "Əttəhiyyatu" duası oxunur. (Əgər iki rükətli bir namaz isə "Allahümmə salli", "Allaümmə bərik" və "Rabbənə" duaları oxunaraq salam verilir.)

15. Sonra üçüncü rükətə qalxılır. "Fatihə" və bir surə oxunur. (Fərz namazların üçüncü və dördüncü rükətlərində yalnız "Fatihə" oxunur.)

16. Yenə rüku və səcdələr edərək dördüncü rükətə qalxılır. Yenə "Fatihə" və bir surə oxuyaraq rüku, səcdə edilir və oturulur.

17. Növbə ilə "Əttəhiyyatü", "Allahümmə salli və bərik", "Rabbənə" duaları oxuyaraq əvvəl sağa, sonra da sola salam verilir. (Əgər üç rükətli bir namaz isə bu dualar oxunaraq üçüncü rükətdə salam verilir).

❁ ❁ ❁

**Vitr namazı necə qılınır?**

Vitr namazı da digər namazlar kimi eyni qaydada qılınır. Lakin üçüncü rükətdə "Fatihə" ilə bir surə oxunduqdan sonra əllər qaldırılıb "Allahu Əkbər" deyərək təkbir alınır və "Qunut" duası oxunur.

**Namaz qılındıqdan sonra təsbihat duaları necə edilir?**

Namazdan sonra sırası ilə bunlar oxunur:

1. Fərz namazlardan sonra "Allahümmə əntəs sələmu və minkəs-sələm təbəraktə yə zəlcələli vəl-ikram"-deyilir. Əgər sünnə namazı varsa qılınır, yoxsa "Allahümmə salli alə seyyidinə Muhəmməd"-deyərək Peyğəmbərimizə səlavat gətirilir.

2. Bundan sonra "Sübhanəllahi vəlhamdulilləhi və lə iləhə illəllahu vəllahu əkbər və lə havlə və lə quvvətə illa billəhil-aliyyil-azim"-deyilir.

3. Sonra "Ayət əl-kürsi" oxunaraq 33 dəfə "Sübhanallah", 33 dəfə "Əlhamdulillah", 33 dəfə "Allahu Əkbər"-deyilir.

4. Bundan sonra "Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh ləhül-mülkü və ləhül-hamdu və hüvə alə külli şeyin qadir" duası oxunur və "Sübhəna Rabbiyəl aliyyil ələl vəhhəb" -deyərək dua edilir.

❁ ❁ ❁

**Necə Dua edək?**

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Məhəmmədə (səllallahu əleyhi və səlləm), onun ailəsinə, əshabına və onun yolu ilə gedənlərə salat və salam olsun. Allahım! Günahlarımızı bağışla, bizdən razı ol. İbadətlərimizi qəbul eylə! Sənə ibadət etmək üçün bizə kömək et. Allahım! Bizə dünyada da axirətdə də yaxşılıq ver və bizi cəhənnəm əzabından qoru! Allahım! Qiyamət günü insanlar hesaba çəkilərkən məni, anamı, atamı və bütün möminləri bağışla, ey mərhəmətlilərin ən mərhəmətlisi olan Allah!

❁ ❁ ❁

**Səhv səcdəsi nədir və necə edilir?**

Namazda fərzlərdən birini gecikdirdikdə və ya vaciblərdən birini tərk etdikdə səhv səcdəsi edilir. Səhv səcdəsini etmək vacibdir. Səhv səcdəsi belə edilir. Son oturuşda "Əttəhiyyətü" duası oxunduqdan sonra sağa salam verilir və iki dəfə yenə səcdə edilir. Növbə ilə "Əttəhiyyətü", "Allahümmə salli, bərik" "Rəbbənə" duaları oxunaraq sağa və sola salam verilir.

**Məscid ədəbləri nələrdir?**

Məscidlər müsəlmanların Allaha ibadət etdikləri yerlərdir. Məscidlərə hörmət göstərmək hər bir müsəlmanın vəzifəsidir. Bu vəzifələr aşağıdakılardır:

1. Məscidə dəstəmazlı olaraq təmiz paltarlarla gedilməlidir.

2. Məscidə sağ ayaqla girməli və girərkən peyğəmbərimizə (s.ə.s.) salavat gətirilməlidir.

3. Məsciddən çıxarkən sol ayaqla çıxılmalıdır.

4. Ayaqlar və corablar kirli olmamalıdır

5. Soğan, sarımsaq kimi pis qoxu verən şeyləri yeyərək məscidə gedilməməlidir.

6. Məsciddə üzrsüz olaraq ayaqları uzadılaraq oturulmamalıdır.

❁ ❁ ❁

**Cümə günü və cümə namazı haqqında məlumat verin?**

Cümə günü müsəlmanların müqəddəs günüdür. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) bu haqda buyurur:

“Hər kim gözəl dəstəmaz aldıqdan sonra məscidə gələr, susaraq xütbəni dinləyərsə, bu cümədən digər cüməyə qədər olan vaxt ərzindəki günahları bağışlanır.”

Cümə namazı dörd rükət ilk sünnə, iki rükət fərz, dörd rükət son sünnə olmaqla on rükətdir. Bundan əlavə istəyən, dörd rükət zöhri-axir namazı ilə 2 rükət vaxtın sünnəsini qıla bilər.

❁ ❁ ❁

**Cümə namazı kimlərə fərzdir?**

Sağlam olan, səfərdə olmayan, azad və sərbəst olan yetkinlik yaşına çatan hər bir kişiyə fərzdir.

**Bayram namazları necə qılınır?**

Müsəlmanların ildə iki dini bayramı vardır:

1- Qurban bayramı

2- Ramazan bayramı

Bayram namazları iki rükətdir və iki rükətli namazlar kimi qılınır. Yalnız birinci rükətdə "Sübhanəkə" duasından sonra əlləri qaldırıb, saldırmaqla üç dəfə "Allahü Əkbər" deyib təkbir alınır. İkinci rükətdə "Fatihə" və bir surə oxunduqdan sonra yenə üç dəfə əlavə təkbir alınır.

❁ ❁ ❁

**Təravih Namazı nədir və necə qılınır?**

Ramazan ayında hər gün yatsı namazından sonra kişilər və qadınlar üçün sünnə olaraq qılınan namaza təravih namazı deyilir. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) buyurur: "Savabına inanaraq və mükafatını umaraq Allah rizası üçün Ramazan gecələrini ibadətlə keçirən (təravih namazını qılan) kimsələrin keçmiş günahları bağışlanır".

Təravih namazı 20 rükətdir (8 rükət olaraq da qılına bilər): 2 və ya 4 rükətdən bir salam verməklə qılınır.

❁ ❁ ❁

**Cənazə namazı necə qılınır?**

Cənazə namazı fərzi-kifayə olub və ölü üçün dua etməkdir. Cənazə namazı dörd təkbirdən ibarətdir. Birinci təkbirdən sonra "Sübhanəkə" duası, ikinci təkbirdə "Allahümmə salli və bərik" duaları, üçüncü təkbirdən sonra cənazə duası oxunur. Dördüncü təkbirdən sonra salam verilir.

❁ ❁ ❁



## DUA

**√ Rəbbim! Mən Səndən səhhət, iffət, əminlik və gözəl xasiyyət istəyirəm**

**√ Allahım! Səndən qəlbimi mərifət nuru ilə əbədi olaraq nurlandırmanı istəyirəm!**

**√ Allahım! Verdiyin ruziləri bərəkətləndir!**



## OXU MATERİALI

### *MƏLƏYİN SƏSİ*

Mustafa 7-ci sinifdə əlaçı şagirddir. O, yaşının kiçik olmasına baxmayaraq ətrafına və ətrafındakı hadisələrə çox fikir verir. Ətrafındakı hər bir hadisəni və öz fikirlərinin səbəblərini axtarırdı. Məktəbdə uşaqlar arasında danışanda Mustafa digər şagirdlərdən tamamilə fərqlənir və çox maraqlı məsələlərdən danışırdı. Bir gün evdə atasına:

-Atacan, görürəm ki, anam bizim üçün çox zəhmət çəkir. İçimdən ona kömək etmək hissi gəlir və kömək edirəm. Bəzən isə onun mənə ehtiyacı olduğnu bildiyim halda fikrimdən oynamaq keçir və gedib oynayıram. Anamı çox sevdiyim halda nə üçün belə hərəkət etdiyimi dərk edə bilmirəm.

Atası Mustafanın belə suallarına öyrənmişdi. Hissiyyatını gizləmədiyi və açıq danışdığı üçün atası onu çox sevirdi.

-Bu hal təkcə səndə yox, hər kəsdə var, oğlum-dedi.

-Bax bunu bilmirdim, doğrusu çox sevindim. İndiyədək həmişə özümü təqsirkar görürdüm. Ata ancaq bunu da bilmək istəyirəm: Nə üçün bu iki zidd fikir məndə cəmləşir? -deyə soruşdu. Atası:

-Bəli, insan gözü ilə görə bilmədiyi bir-birinin ziddi iki varlığın təsiri altında olduğu üçün bir-birinə zidd qərarlar verir. Bu zidd varlıqların biri mələk, digəri şeytandır. Mələk, həmişə yaxşı işləri yadımıza salır və bizim xeyrimizi istəyir, pis insan olmamızı istəmir. Etdiyimiz pis əməllərimizə görə narahat olur. Şeytan isə pis işləri bizim yadımıza salır. Yaxşı insan olmamızı istəmir.

-Atacan, mən içimdən "belə et!", ya da "etmə" deyə bir səs eşitmirəm.

-Mələyin və şeytanın səsi bizim səsimizə bənzəmir. Onlar, bilavasitə bizim fikirlərimizə təsir edirlər.

-Bəs mələyin və şeytanın səsini necə ayıra bilərəm?

-Allahın və dinimizin əmrlərini yerinə yetirmək və yaxşı işlər görmək üçün olan fikirlərin mələyin səsi, pis hərəkətlər etmək və nəfsimizin pis istəklərinə tabe olma düşüncəsi isə şeytanın səsidir.

❁ ❁ ❁



## D U A

**√ Allahım! Üzümü gözəl etdiyin kimi, əxlaqımı da gözəl eylə!**

# VI FƏSİL

# ORUC - ZƏKAT - HƏCC - QURBAN

**Oruc nədir?**

Oruc niyyət edərək dan yerinin ağarmasından başlayraq axşam günəş batana qədər yemək yeməmək, içməmək və şəhvətdən uzaq olmaqdır. Allah-Təala buyurur:

"Ey iman edənlər! Oruc sizdən əvvəlki ümmətlərə fərz olduğu kimi sizə də fərz qılınmışdır."

❁ ❁ ❁

**Orucun faydaları nələrdir?**

Onlardan bəziləri bunlardır:

√ Oruc insanın əxlaqını gözəlləşdirir.

√ Oruc insana mərhəmətli olmağı öyrədir.

√ Oruc insana nemətlərin qədrini bilməyi öyrədir.

√ Oruc tutmaq insanı sağlamlaşdırır.

√ Oruc tutmaq insana səbirli olmağı öyrədir.

❁ ❁ ❁

**Oruc kimə fərzdir?**

Ağıllı və yetkinlik yaşına çatan hər bir müsəlmana ramazan ayında bir ay oruc tutmaq fərzdir.

❁ ❁ ❁

**Orucu pozan amillər nələrdir?**

Bunlardır:

√ Yemək- içmək

√ Siqaret çəkmək

√ Dərman atmaq

√ Ağız dolusu qusmaq (öz istəyi ilə)

√ Cinsi əlaqədə olmaq.

❁ ❁ ❁

**Orucu pozmayan amillər nələrdir?**

Bunlardır:

√ Unudaraq yeyib-içmək

√ Qulağına su getmək

√ Gözə dərman tökmək

√ Öz istəyi olmadan qusmaq

√ Ağızdakı tüpürcəyi udmaq

❁ ❁ ❁

**Orucun növləri hansılardır?**

Bunlardır:

1. Fərz oruc: Ramazan orucu və qəza orucları

2. Vacib oruc: Nəzir orucları və nafilə olaraq pozulan oruclar

3. Sünnə oruc: Məhərrəm ayının 9,10 və 11-ci günləri oruc tutmaq

4. Müstəhab oruc: Hicri qəməri ayların 13,14,15-i ilə həftənin bazar ertəsi və cümə axşamı günləri oruc tutmaq

Qeyd: Bayram günlərində oruc tutmaq haramdır.

❁ ❁ ❁

**Zəkatın əhəmiyyəti və faydaları haqqında danışın?**

Zəkat varlı kimsələrin hər il öz malının və pulunun 1/40-ni Allah yolunda yoxsullara, fağırlara verməsinə deyilir. Digər ibadətlərin faydaları olduğu kimi, zəkatın da faydaları vardır.

Bunlardan bəziləri aşağıdakılardır:

√ Zəkat varlı ilə yoxsulları bir-birinə yaxınlaşdırır. Çalışmağa gücü çatmayanlara normal bir həyat yaşamaq imkanı verir.

√ İnsanı paxıllıqdan qoruyur və comərd, əliaçıq edir.

√ Allahın verdiyi nemətlərə qarşı bir şükürdür.

√ Zəkat malı qoruyur.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) bu haqda "Mallarınızı zəkat ilə qoruyun." buyurur. ❁ ❁ ❁

**Zəkatı kimlər verməlidir?**

Bu şərtləri özündə cəm edənlər zəkat verməlidir:

√ Ağıllı,

√ Yetkinlik yaşına çatan,

√ Müsləman,

√ Zəngin olanlar. (Zəkat verəcək qədər mal və pula sahib olanlar)

Qeyd: Bu şərtlərə sahib olanlar zəkat verməlidirlər.

❁ ❁ ❁

**Zəkat verilən mal və pul necə olmalıdır?**

Zəkat veriləcək mal və pul,

1- Aşağısı 80,1 qram qızıl dəyərinə çatmış olmalıdır.

2- Sahibinin əlində tam bir il qalmalıdır.

3- Artan mal olmalıdır.

❁ ❁ ❁

**Zəkat kimlərə verilir?**

Zəkat bu kəslərə verilməlidir:

1. Kasıblara
2. Borclulara
3. Allah yolunda olanlara
4. Yolçulara
5. Zəkat toplama işində çalışanlara
6. Qəlbi İslama isindirilmək istəyənlərə

❁ ❁ ❁

**Fitrə (Fitr sədəqəsi) nədir?**

Zəkat verməyə imkanı olan kimsələrin fitrə sədəqəsi də verməsi lazımdır. Fitrə Ramazan ayında kasıblara verilən bir sədəqədir. Fitrə təqribən 3 kq buğda, yaxud imkan olduğu təqdirdə 3 kq xurma və ya kişmiş qiymətində verilməlidir.

❁ ❁ ❁

**Həcc nədir və onun faydaları nələrdir?**

Həcc ibadəti müəyyən zamanlarda müəyyən yerləri ziyarət etməyə deyilir. Həcc həm malla, həm də bədən ilə edilən bir ibadətdir. Həcdə ibadət ediləcək yerlər Kəbə, Ərafat və onun ətrafıdır.

Həccin bir çox faydaları vardır:

√ Müxtəlif ölkələrdən gələn dili, irqi, milləti ayrı olan insanlar bir məqsədlə toplanır, görüşür, tanış olurlar.

√ İnsanlar hamısı həcdə eyni səviyyədə olur ki, bu da onların Allah qarşısında bərabərliyini göstərir.

√ Çətinliyə qarşı insanın səbir etməsini göstərir.

√ Qiyamət səhnəsini xatırladır.

√ İnsanların mərhəmət hissini gücləndirir.

❁ ❁ ❁

**Qurban nədir və kimlərə vacibdir?**

Allah rizası üçün qurbanlıq heyvanı kəsməkdir.

Qurban kəsəcək şəxs müsəlman, ağıllı, yetkinlik yaşına çatmış, azad, səfərdə olmayan və dinən varlı olmalıdır.

❁ ❁ ❁

**Hansı heyvanlardan qurban kəsilir?**

Qoyun, keçi, iribuynuzlu heyvanlar (inək, camış) və dəvədən qurban olar.

❁ ❁ ❁

**İsmail qurbanı nəyə deyilir və hökmü nədir?**

Hər il qurban bayramında (Zilhiccə ayının 10-u) kəsilən qurbanlar "İsmayıl qurbanı" adlanır və bunun hökmü vacibdir.

❁ ❁ ❁

**Demə (nəzir, adak) qurbanı nədir?**

Allah üçün kəsilməsi əhd edilən qurbana deyilir. Məsələn: "Oğlum əsgərlikdən gələrsə, qurban kəsəcəyəm" deyən bir nəfərin oğlu əsgərlikdən gələndə qurban kəsməsi vacib olur.

❁ ❁ ❁

**Mübarək gün və gecələr hansılardır?**

Allaha-Təala insanlara rəhmətinin əsəri olaraq bir çox mübarək aylar, günlər və gecələr ehsan etmişdir.

a. Mübarək günlər bunlardır:

1. Bayram günləri: Müsəlmanın ildə iki dini bayramı vardır: Ramazan və Qurban bayramı.

2. Cümə günü: Hər həftənin beşinci – cümə günü müsəlmanlar üçün sevinc və bayram günüdür.

3. Aşura günü: Məhərrəm gününün 10-cu günü.

b. Mübarək gecələr bunlardır:

1. Mövlüd gecəsi - Peyğəmbərimizin doğulduğu gecədir.

2. Rəğaib gecəsi - Rəcəb ayının ilk cümə gecəsidir. Bu gecə Allahın rəhmət və bağışlamasının bol olduğu bir gecədir.

3. Merac gecəsi - Rəcəb ayının 27-ci gecəsidir. Bu gecə Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Cəbrayıl (Əleyhis-səlam) ilə birlikdə Məkkədəki Məscidi-Haramdan, Qüdsdəki Məscidi-Əqsaya gətirilmiş və buradan bütün məkanı və zamanı aşaraq "Sidrətül Müntəhaya" yüksəldilmişdir.

4. Bəraət gecəsi - Şaban ayının 15-ci gecəsidir. Bu gecə Allahın, ona yönəlib bağışlamasını istəyən möminləri bağışlayaraq bəraət verdiyi bir gecədir.

5. Qədr gecəsi - Ramazan ayının 27-ci gecəsi hesab olunur. Müqəddəs Qurani-Kərimi Allah-Təala bu gecədə yer üzərinə endirməyə başlamışdır.

❁ ❁ ❁



## DUA

**√ Ey Rəbbimiz!**

**Unutduqda və ya yanıldıqda bizi cəzalandırma!**

**√ Ey Rəbbimiz!**

**Bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə!**

**√ Ey Rəbbimiz!**

**Gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma!**

**Bizi əfv edib bağışla. Bizə rəhm et! Sən bizim mövlamızsan. Kafirlərə qələbə çalmaqda bizə kömək et!**

## OXU MATERİALI

### *AMİN*

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) bir gün xütbə oxuyacaqdı. Minbərə bir pillə çıxdı: "Amin!" dedi. Bir pillə daha çıxdı: "Amin!" dedi. Bir pillə daha çıxdı yenə: "Amin!" dedi. Minbərdən endiyində səhabələr soruşdu:

-Ey Allahın Rəsulu! Bu gün biz səndən daha əvvəl heç eşitmədiyimiz yeni bir şey eşitdik. (Bu üç dəfə Amin deməyinizin hikməti nədir?)

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) belə buyurdu:

-Minbərdə ikən Cəbrail (ə.s) gəldi və mənə birinci pillədə ikən belə dedi:

"Ramazanı-şərifə çatıb özünü əfv etdirməyənə lənət olsun."

Mən də "Amin!" dedim.

İkinci pillədə ikən belə dedi:

"Yanında sənin adın söyləndiyi halda sənə salavat gətirməyənə lənət olsun."

Mən də "Amin!" dedim.

Sonra üçüncü pilləyə çıxanda isə belə dedi:

"Ata-anasının qocalığına çatıb və ya birinin qocalığını görüb cənnəti qazana bilməyən adama lənət olsun."

Mən də "Amin!" dedim.

❁ ❁ ❁

# VII FƏSİL

# ƏXLAQ

**Allah qarşısında vəzifələrimiz nələrdir?**

Bizi yoxdan var edən və bizə bütün nemətləri verən Allahımız qarşısında bir çox vəzifələrimiz vardır:

1- Allahın varlığına və birliyinə inanmaq.

2- İbadət vəzifələrini yerinə yetirmək

Əmrlərinə uyğun hərəkət edib, qadağan etdiyi şeylərdən də çəkinmək

4- Allah sevgisini hər şeydən üstün tutmaq

5- Allahın adını hörmətlə anmaq

6- Verdiyi nemətlərə şükür etmək.

❁ ❁ ❁

**Peyğəmbərimizə (səllallahu əleyhi və səlləm) qarşı vəzifələrimiz nələrdir?**

Allah İslam dinini insanlara təbliğ etmək vəzifəsini Peyğəmbərimizə (səllallahu əleyhi və səlləm) verdi. Sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) insanların səadəti üçün çox çalışdı. Çətinliklərə sinə gərdi, insanlara xoşbəxt olmağın yollarını göstərdi. Peyğəmbərimizə (səllallahu əleyhi və səlləm) qarşı vəzifələrimiz bunlardır:

1- Onun son və ən böyük Peyğəmbər olduğuna inanmaq

2- Onu çox sevmək, adı çəkildikdə salavat gətirmək

3- Onun göstərdiyi yol ilə getmək

4- Onun gözəl əxlaqı ilə əxlaqlanmaq.

❁ ❁ ❁

**Qurani-Kərimə qarşı vəzifələrimiz nələrdir?**

Uca kitabımıza qarşı vəzifələrimiz bunlardır:

1-Qurani-Kərimin Allah tərəfindən Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) vastiəsi ilə bəşəriyyətə göndərilən son kitab olduğuna inanmaq

2-Onu qaydasına uyğun olaraq gözəl oxumaq

3-Mənasını başa düşməyə çalışmaq

4-Quranı oxuyarkən və dinləyərkən son dərəcə hörmət, diqqət və sayğılı olmaq.

5-Quranın "et" dediklərini etmək, "etmə" dediklərindən çəkinmək.

❁ ❁ ❁

**Ata və Anamıza qarşı vəzifələrimiz nələrdir?**

Ata-anamıza qarşı vəzifələrimiz bunlardır:

1-Ata və anaya yaxşılıq etmək

2-Onların maddi və mənəvi ehtiyaclarını təmin etmək

3-Onları söz və davranışlarla incitməmək Onlara qarşı gülərüzlü, şirin dilli olmaq.

4-Çağırdıqları zaman dərhal onların hüzuna getmək

5-Ata və ananın əmrlərini yerinə yetirmək (əgər Allaha qarşı gəlmək yoxdursa)

6- Onlarla yüksək səslə danışmamaq

7-Yolda gedərkən onlardan irəli keçməmək

8-Onlardan icazəsiz bir yerə getməmək

9-Öldükləri zaman onları yada salıb dua etmək

❁ ❁ ❁

## OXU MATERİALI

### *ANA HAQQI*

Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) hüzuruna bir nəfər gələrək belə dedi:

-Ya Rəsulallah, ölüm döşəyində yatan bir gənc var, ona "Lə iləhə illallah" deməsi təlqin ediləndə bunu təkrar edə bilmir.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) onadan:

-Namaz qılardımı?-deyə soruşdu. Adam:

-Bəli, qılırdı.-deyə cavab verdi. Sonra Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) qalxdı, həmin gəncin yanına getdi və ona:

-"Lə iləhə illəllah de!" – buyurdu.

-Deyə bilmirəm

-Nə üçün deyə bilmirsən? – deyə soruşanda, bir nəfər:

- Anasına qarşı üsyankar idi.- dedi. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) isə:

-Anası sağdırmı? – deyə soruşdu. Oradakılar:

-Bəli, sağdır.- dedilər. Peyğəmbərimiz:

-Çağırın, gəlsin! – buyurdu. Onlar da qadını çağırdılar.

Qadın gəldi və Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) belə soruşdu:

-Bu xəstə sənin oğlundurmu?

-Bəli, oğlumdur.

-Bax, burada böyük bir od-ocaq qalansa və: "Oğluna haqqını halal edərsənsə, onu bu odda yandırmayacağıq.

Əgər halal etməzsən həmin odda onu yandıracağıq" desələr nə edərdin?

-Ona haqqımı halal edərdim.

-O halda (sənə üsyan edən bu oğlunu cəhənnəm odundan qorumaq üçün haqqını ona halal edib) ondan razı olduğuna Allahı və məni şahid göstər.

-Allahım, Səni və Peyğəmbərini şahid tuturam. Oğlumdan razı oldum. (haqqımı ona halal etdim).

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) xəstə gəncə:

-"Lə iləhə illəllah de!". – buyurdu. Xəstə dərhal şəhadət gətirdi. Sonra Peyğəmbərimiz:

-Allaha həmd olsun ki, o, mənim vasitəm ilə bu gənci cəhənnəm odundan qurtardı!– dedi.

❀ ❀ ❀

## D U A



**√ Rəbbimiz! Biz yalnız Sənə ibadət edir və yalnız səndən kömək diləyirik! Bizi doğru yola yönəlt!**

**√ Allahım! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə salmaq istəyən şər qüvvələrinə aman vermə! Bizə öz tərəfindən bir mərhəmət bəxş et! Sən doğrudan da ən gözəl və ən yüksək bəxşiş verənsən!**

**Yaxınlarımıza və qohumlarımıza qarşı vəzifələrimiz nələrdir?**

Bunlardır:

1-Onlara sevgi və hörmət göstərmək

2-Ehtiyacı olanlara yardım etmək

3-Onları unutmamaq, ziyarətlərinə getmək

4-Uzaqda olanlarını məktub və telefonla axtarıb yada salmaq.

❁ ❁ ❁

**Qonşularımıza qarşı vəzifələrimiz nələrdir?**

Bunlardır:

1. Qonşuların haqqına hörmət göstərmək.

2. Gülərüzlü, yaxşı sözlü olmaq. Onların sevinc və kədərlərini paylaşmaq

3. Lazım olanda onlara imkan daxilində yardım etmək.

4.Xəstələndiklərində ziyarətlərinə getmək, öldüklərində cənazələrini aparmağa kömək etmək.

❁ ❁ ❁

**Vətənə qarşı vəzifələrimiz nələrdir?**

Vətənimizə qarşı vəzifələrimiz bunlardır:

1.Vətəni çox sevmək

2.Vətənin maddi və mənəvi inkişafı üçün çalışmaq

3.Vətənin birlik və bərabərliyini qorumaq üçün dinimizi öyrənib başqalarına da öyrətmək

4.Vətən borcumuz olan əsgərlik xidmətini layiqincə yerinə yetirmək

5.Vətənin bir qarış torpağı üçün qanımızın son damlasına qədər vuruşmaq

**Şəhid və qazi kimə deyilir?**

Şəhid: Allah yolunda, vətən uğrunda, ölənlərə şəhid deyilir.

Qazi: Allah yolunda, vətən uğrunda, vuruşub şəhid olmamış qəhrəmanlara deyilir.

❁ ❁ ❁



## D U A

√ **Rəbbim! Mənə və ata-anama lütf etdiyin nemətinə şükür etməyimi və bundan sonrakı ömrümdə Sənin razı olacağın yaxşı işlər görməyi mənə nəsib et! Rəhmətinlə məni də Cənnətə, saleh qullarının arasına qoy!**

## OXU MATERİALI

### *ŞƏHİDLİK VƏ QAZİLİK*

Allah yolunda, din, vətən və millət uğrunda döyüşərkən ölənlərə şəhid, sağ qalanlara da qazi (veteran) deyilir.

Allah-Təala, Qurani-Kərimdə belə buyurur:

"Allah yolunda öldürülənlərə ölülər deməyin, onlar ölü deyil, diridirlər, fəqət siz başa düşmürsünüz". (əl-Bəqərə, 154). Bu ayə ilə şəhidlərin ölməzliyi bildirilmişdir.

Ölümlərin ən gözəli və ən şərəflisi şəhid olaraq ölməkdir. Sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) belə buyurmuşdur:

"Sizdən biriniz, qarışqa dişlədiyi zaman nə qədər acı hiss edirsə, şəhid olan kimsə də ölüm acısını ancaq o qədər hiss edir."

Bununla da Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) şəhidlərin ölüm acısını belə duymayacağını bildirmişdir.

Şəhidlik günahların bağışlanmasına səbəb olan çox fəzilətli bir əməldir. Bu mövzuda Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm):

"Şəhid olan şəxsin qul haqqından başqa bütün günahlarını Allah bağışlayar."

Atalarımızın bizə əmanət etdiyi bu müqəddəs vətənimizi lazım gələndə eyni inamla qorumaq və onun uğrunda canımızı sevə-sevə fəda etməyə hazır olmaq bizim ən vacib vəzifəmizdir. Çünki Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) belə buyurur:

"Vətən sevgisi imandandır"

Ona görə də vətənimizi gözümüz kimi sevib qorumalıyıq.

# VIII FƏSİL

## SİYƏR

(Peyğəmbərimizin həyatı)

**Həzrət Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) doğumu və uşaqlığı haqqında məlumat verin?**

Həzrət Məhəmməd (səllallahu əleyhi və səlləm) miladi 571-ci ilin aprel ayının 20-də (Qəməri təqvimlə Rəbbiul-əvvəl ayının 12-də) Məkkədə dünyaya gəldi.

Körpə vaxtında Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Məkkənin kənarında Sad qəbiləsindən Həlimə adında bir süd anaya verildi. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) doğulmamışdan iki ay əvvəl atasını, altı yaşında ikən anası Əminəni itirdi. Sonra babası Əbdülmüttəlibin yanında qaldı. Səkkiz yaşında Əbdülmüttəlibi itirdi və əmisi Əbu Talib onu öz himayəsinə götürdü.

❁ ❁ ❁

**Həzrət Peyğəmbərin (səllallahu əleyhi və səlləm) gəncliyi haqqında danışın?**

Həzrət Peyğəmbər (səllallahu əleyhi və səlləm) 8 yaşından 25 yaşına qədər Əbu Talibin yanında qaldı. Əmisi Əbu Talib ticarət ilə məşğul idi. Bir səfərində Peyğəmbərimizi (səllallahu əleyhi və səlləm) özü ilə Şam yaxınlığındakı Basra qəsəbəsinə apardı. Orada Bahirə adlı bir keşiş Peyğəmbərimizi (səllallahu əleyhi və səlləm) tanıyaraq Əbu Talibə onun peyğəmbər olacağını söylədi. Həmçinin Həzrət Peyğəmbər (səllallahu əleyhi və səlləm) 17 yaşında əmisi Zübeyr ilə Yəmənə səfər etmişdi.

❁ ❁ ❁

**Həzrət Peyğəmbərin (səllallahu əleyhi və səlləm) evliliyi və uşaqları haqqında danışın?**

Həzrət Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) 25 yaşında ikən Məkkənin Qureyş qəbiləsinin ən varlı qadını Həzrət Xədicə ilə evləndi.

Həzrət Peyğəmbərin (səllallahu əleyhi və səlləm) üç oğlu və dörd qızı olmuşdur. Oğlanları Qasım, Abdullah və İbrahim, qızları isə Zeynəb, Ruqiyyə, Ümmügülsüm və Fatimədir. Həzrət Peyğəmbərimizin (səllalla-

hu əleyhi və səlləm) nəsli Həzrət Fatimə (radiyallahu anhə) vasitəsi ilə davam etmişdir.

❁ ❁ ❁

**Həzrət Məhəmmədə (səllallahu əleyhi və səlləm) Peyğəmbərlik verilməsi hadisəsini izah edin?**

Miladi 610-cu ildə Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Hira adlı mağarada ibadət edirdi. Bir bazar ertəsi günü yenə Hira mağarasında ikən Cəbrail (ə.s) gələrək Peyğəmbərimizə (səllallahu əleyhi və səlləm) göründü və ona "Oxu!" dedi. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) bir neçə dəfə mən oxumağı bilmirəm dedi.

Cəbrail (ə.s) Peyğəmbərimizi sıxdı və yenə oxumasını istəyərək "Ələq" surəsinin ilk beş ayəsini bildirdi:

1. Yaradan Rəbbinin adıyla oxu!
2. O, insanı laxtalanmış qandan yaratdı.
3. Oxu! Rəbbin ən böyük kərəm sahibidir!
4. O Rəbbin ki, qələmlə yazmağı öyrətdi.
5. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi.

❁ ❁ ❁

**Həzrət Məhəmmədin (səllallahu əleyhi və səlləm) gizli dəvəti necə olmuşdur?**

İlk vəhydən sonra Vəhy kəsildi və bir müddət vəhy gəlmədi. Bu Peyğəmbərimizin vəhy almağa hazırlanması üçün idi. Bir müddətdən sonra Cəbrail (ə.s) yenə Peyğəmbərimizə gələrək "Müddəssir" surəsinin ilk ayələrini gətirdi.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) İslamı üç il gizli təbliğ etdi. Sonra növbəti ayə enməsi ilə açıq dəvət başladı. Lakin təbliğ ilə bərabər müsəlmanlara qarşı maneələr başlandı və onlara işgəncələr verildi. Nəticədə 11 kişi, 4 qadın olmaqla müsəlmanlardan bir dəstə ilk dəfə Həbəşistana hicrət etdi.

❁ ❁ ❁

**Müşriklərin müsəlmanlara əziyyət verməsi necə oldu və ən çox işgəncə verənlər kim idi?**

Müşriklər müsəlmanlara əzab və müxtəlif işgəncələr verirdilər. Əmmar bin Yasir ilə anası Süməyyə Xatun müşriklərin əziyyəti və işgəncəsi altında İslamın ilk şəhidləri oldular.

Müsəlmanlara ən çox əziyyət verən, islamın inkişafına mane olan müşriklərin qabaqcılları Əbu Ləhəb, Əbu Cəhl, As b. Vail, Vəlid b. Muğirə, Uməyyə b. Hələf, Utbə b. Rabiə idi.

❁ ❁ ❁

**Merac möcüzəsi hadisəsi necə olmuşdur?**

Peyğəmbərlər arasında Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) Allah qatında xüsusi bir yeri vardır. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) hicrətdən bir il yarım əvvəl Rəcəb ayının 27-ci gecəsi Məkkədəki Məscidi-Haramdan Qüdsdəki Məscidi-Əqsaya aparılmış, oradan da göylərə ucaldılmış, Mələkut aləmini seyr etmişdir. Bu, Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) açıq bir möcüzəsidir.

❁ ❁ ❁

**Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Merac yolçuluğundan hansı müjdə və hədiyyələrlə qayıtmışdır?**

Bu məqamda Peyğəmbərimizə üç şey verilmişdir:

1-Bəqərə surəsinin son iki ayəsi (Əmənər-Rasulu)

2-Ümmətindən Allaha şirk qoşmayanların cənnətə girəcəyi müjdəsi.

3-Merac hədiyyəsi olaraq beş vaxt namaz: İslamın şərtlərindən biri və dinin dirəyi olan namaz, Merac gecəsində fərz qılınmışdır.

Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) Mədinəyə hicrəti necə olmuşdur?

İslam tarixində Həzrət Məhəmmədin (səllallahu əleyhi və səlləm) Məkkədən Mədinəyə köç etməsinə Hicrət deyilir.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) İslamı açıq dəvət etdikdən sonra müşriklər İslama qarşı amansız düşmən kəsildilər. Bu işgəncələr davam edirdi. Müşriklər hətta Həzrət Peyğəmbəri öldürmək planları hazırladılar. Allah-Təala bu planı Peyğəmbərimizin (Səllallahu ələyhi və səlləm) qəlbinə vəhy etdi və hicrətə icazə verdi. Həzrət Peyğəmbər (səllallahu əleyhi və səlləm) Həzrət Əbu Bəkrlə (radıyallahu anh) birlikdə Məkkədən Mədinəyə hicrət etdi. Həzrət Əli də (radıyallahu anh) Həzrət Məhəmməd (səllallahu əleyhi və səlləm) Mədinəyə çatdıqdan üç gün sonra onlara yetişdi.

Mədinəlilər Uca Peyğəmbəri (səllallahu əleyhi və səlləm) xoş bir mahnı ilə qarşıladılar (Taləal Bədru). Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) ilk əvvəl Əbu Əyyub əl-Ənsarinin (radıyallahu anh) evində yaşadı. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Məscidi-Nəbəvini inşa etməyə başladı.

Ənsar bütün öz mallarını, sevgilərini, çörəklərini və hər cür yardımı Mühacirlərlə bölüşdülər.

❁ ❁ ❁

**Ənsar və mühacir kimə deyilir?**

Məkkədən Mədinəyə köç edərək gələnlərə "Mühacir", Mədinədə Məkkədən gəlmiş insanlara kömək göstərənlərə "Ənsar" deyilir.

❁ ❁ ❁

**Həzrət Məhəmməd (səllallahu əleyhi və səlləm) dövründə olan döyüşlər hansılardır?**

Bunlardır:

1. Bədir:

Həzrət Məhəmmədin (səllallahu əleyhi və səlləm) Hicri II, miladi 624-cü ildə Ramazan ayında 305 nəfərlik ordusu 1000 nəfərlik düşmən ordusu ilə "Bədir" deyilən yerdə üz-üzə gəldilər. Bədir döyüşündə düşmən 70 ölü, 70 əsir verib məğlub oldu və qaçdı, 14 nəfər müsəlman şəhid oldu.

2. Uhud:

Bədir döyüşünün qisasını almaq üçün müşriklər Hicri III, miladi 625-ci ildə "Uhud" deyilən yerə 3000 nəfərlik ordu ilə gəldilər. Müsəlmanlar isə 1000 nəfərlik ordudan 300 nəfəri iştirak etməmiş və qalan 700 nəfər düşmən ilə vuruşmalı olmuşdu. Bu döyüşdə müsəlmanlar 70 şəhid vermiş, düşməndən ölənlərin sayı isə 22 olmuşdu. Döyüşdə iştirak etməyənlərin tutduqları yolun səhv olduğu haqqında ayə endirilmiş və onların münafiqlər olduğu bildirilmişdir.

3. Xəndək:

Hicri 5, Miladi 626-cı ildə düşmən, yenə də intiqamından əl çəkmədi və böyük bir ordu ilə yenidən gəldi. Səlmani Farisinin (radıyallahu anh) təklifi ilə özlərini müdafiə üçün Mədinə şəhərinin ətrafına xəndək qazıldı. Bu döyüşə "Xəndək" döyüşü adı verildi. Allah-Təala bu döyüş olmamışdan əvvəl orada şiddətli bir küləklə fırtına qopardı və qumu, torpağı düşmənin üzünə çırparaq düşməni pərişan və məğlub etdi.

❁ ❁ ❁

**İslama dəvət məktubları hansı dövlət başçılarına göndərilmişdir?**

Həzrət Məhəmməd (səllallahu əleyhi və səlləm) bütün insanlar üçün göndərilmiş bir peyğəmbərdir. Bu səbəblə Həzrət Peyğəmbər (səllallahu əleyhi və səlləm) bütün qonşu dövlət başçılarına İslama gəlməsi üçün "İslama dəvət məktubları" göndərmişdi. O cümlədən:

1- Həbəşistan Hökmdarı Nəcaşiyə göndərdiyi məktubunu alınca İslamı qəbul etdi.

2- Bizans imperatoru və Misir hökmdarı Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) elçilərini yaxşı qarşıladılar, amma İslamı qəbul etmədilər.

3- İran hökmdarı isə, məktubu cırıb atdı və İslamı qəbul etmədi. Bu hökmdar öz oğlu tərəfindən öldürüldü.

❁ ❁ ❁

**Məkkənin fəthi necə olmuşdur?**

İslam Mədinədə təbliğ ediləni 8 il olmuşdu. Hicri 8, miladi 630-cu ildə Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Məkkəni fəth etməyə qərar verdi və 10 000 nəfərlik bir ordu ilə Məkkə üzərinə yürüdü.

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Məkkənin qan tökülmədən alınmasını buyurmuşdu. Beləliklə, Məkkə qan tökülmədən fəth olundu. Kəbənin içindəki bütlər qırıldı. Məkkənin fəthi qurtardığı zaman günorta namazının vaxtı idi . Bilal Həbəşi Kəbənin damına çıxıb azan oxudu.

❀ ❀ ❀

**Vida Həcci və Xütbəsi haqqında məlumat verin?**

Məkkə fəth edildikdən sonra İslam sürətlə yayılmağa başladı. Qurtuluşun İslamda olduğunu görən camaat dəstə-dəstə İslamı qəbul etməyə başladılar. 100 mindən çox müsəlmanlar pəyğəmbərimizlə bərabər həcc etdi və bu həccə “Vida həcci” deyilir. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Ərafatda 124 minə yaxın müsəlmana bir xütbə söylədi. Bu xütbəyə “Vida xütbəsi” deyilir.

Bu xütbədən sonra “Maidə” surəsinin 3-cü ayəsi nazil olundu. “... Bu gün sizin dininizi kamala çatdırdım. Üzərinizdəki nemətimi tamamladım. Və sizə din olaraq İslamı seçdim.”

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Həcc vəzifəsini tamamladıqdan sonra bərabərindəki müsəlmanlarla Mədinəyə qayıtdı.

❀ ❀ ❀

**Həzrət Peyğəmbərin (səllallahu əleyhi və səlləm) xəstələnməsi və vəfatı necə və nə zaman oldu?**

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Vida həccindən döndükdən sonra xəstələndi. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) vəzifəsinin sona yetdiyini və bu dünyadan köçməsinin zamanı gəldiyini mələyin gətirdiyi bir xəbərlə anlamışdı. Ölümünə 3 gün qalmış xəstəliyi ağırlaşdı. Bəzi hallarda məscidə namaza çıxa bilmədiyi də oldu. Həzrət Əbu Bəkrə, camaata imam olmasını və namaz qıldırmasını əmr etdi .

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) miladi tarixlə 632-ci il iyunun 8-də (hicri 11-ci il səfər ayının 28-də) vəfat etdi. Vəfat etdiyi yerdə dəfn edildi. Mədinədə onun qəbri olduğu yerə – "Rövzeyi Mütəhhəra" deyilir.

Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) 23 illik peyğəmbərliyinin 13 ili Məkkədə, 10 ili Mədinədə keçmişdir.

❀ ❀ ❀



# İCİNDƏKİLƏR

ÜMUMİ SUALLAR........................................................................5
ETİQAD......................................................................................11
İBADƏT......................................................................................23
TƏMİZLİK(Dəstəmaz-Qüsl-Həcc)....................................................29
NAMAZ......................................................................................39
ORUC-ZƏKAT-QURBAN-HƏCC........................................................55
ƏXLAQ......................................................................................63
SİYƏR (Peyğəmbərimizin həyatı)........................................................71

***QEYDLƏR***